www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 19 iyul 2024-cü il Cümə № 125 (8498) Qiymәti 60 qәpik

**Xəbər**

## Azərbaycanda bu tarixdən internet bahalaşır - yeni qiymət

yazısı səh.13-də

**Gündəm**

### Amerikadakı erməni lobbisinə zərbə



“Başqa konqresmenlərlə bağlı da cinayət işləri açıla bilər...”

yazısı səh.5-də

### Partiya sədrlərinin seçkiyə qatıldıqları dairələr məlum oldu

yazısı səh.4-də

### Trampa atılan güllələrdən biri Ermənistana “dəyib” - haylar dərd içində

yazısı səh.6-da

### Ermənistan “müharibə konstitusiyası”nı maskalaya bilməyəcək

yazısı səh.8-də

### Azərbaycan bu təşkilata müşahidəçi olmaq üçün müraciət etdi

yazısı səh.6-da

### PUA-ların qənimi gəlir - müharibənin gedişi indi də belə dəyişəcək?

yazısı səh.14-də

### Ali Məhkəmə həbsdə ölən başçının qardaşına 600 minlik əmlakı vermədi

yazısı səh.11-də

### Pezeşkian hökumətinin “boz kardinalı” - seçki kampaniyasının qəhrəmanı

yazısı səh.12-də

### Azərbaycanın 6 aylıq alış-verişi: ixrac azalır, idxal artır

yazısı səh.10-da

### Çimərliyə gedənlər oxusun - o halda infeksiyaya yoluxa bilərsiz...

yazısı səh.15-də

# PAŞİNYAN ƏLİYEVLƏ GÖRÜŞDƏN QAÇDI - KAPİTULYANTA YARAŞAN ƏCAİB HƏRƏKƏTİN İLGİNC SƏBƏBİ

Azərbaycan Prezidenti Londonda mühüm görüşlər keçirdi; erməni baş nazirin davranışına reaksiyalar; “Ermənistan revanş iddasından əl çəkməyib...”




yazısı səh.3-də

## Azərbaycanın düşməni Avropada yüksək vəzifədən gedir - Bakının gözləntisi

Rusiyanı qəzəbləndirən Kallasın Aİ-də post tutmasının perspektivi; ermənilər üçün “yas quran” Borreli əvəzləyən eston xanımla bağlı rəylər

yazısı səh.9-da



### Fərid Səfərli azadlığa daha tez çıxa bilər - Tehrandan yeni ümid işığı

yazısı səh.7-də



### Həbsdəki “mahmudovçu” generala qarşı yeni iddia - yarım milyonluq tələb

yazısı səh.11-də



*Kamran Əsədov:*

### “Təhsilin keyfiyyəti müəllimlərin əmək haqqına bağlı deyil”

yazısı səh.11-də

YENİ MÜSAVAT
N 125 (8498) 19 iyul 2024



## ŞOK! İran Azərbaycana qarşı kibermüharibəni gücləndirir

**"Azərbaycanın İranda səfirliyini yenidən açdığı bir vaxtda münasibətlərin normallaşması şübhəli olaraq qalır".**

Musavat.com bu barədə İran mediasına istinadən xəbər verir.

"Check Point Sofware"nin yeni hesabatında bildirilir ki, iranlı hakerlər qrupu "MuddyWater" yeni hazırlanmış zərərli proqramlardan istifadə edərək Azərbaycan, Portuqaliya, Türkiyə, Səudiyyə Ərəbistanı və Hindistan kimi ölkələrdə fəaliyyətini genişləndirib.

"İran və Azərbaycan Tehranda səfirliyin yenidən açılmasını gərgin əlaqələri yaxşılaşdırmaq üçün mühüm addım kimi qiymətləndirsələr də, görünür, iki qonşunun dərin geosiyasi və ideoloji fikir ayrılıqlarının həlli üçün çox uzun bir yolu var", - deyə bildirilib.

"Ecoiran" saytında dərc edilən yazıda qeyd edilir ki, hesabata görə, "MuddyWater" hakerlərə dövlət təşkilatları, media qurumları və səyahət agentlikləri daxil olmaqla hədəflərlə yoluxmuş sistemlər və onların serverləri arasında uzaqdan əmrlər yerinə yetirmək və faylları ötürmək imkanı vermək üçün "BugSleep" zərərli proqramından istifadə edib. Onların fəaliyyəti İranın geosiyasi maraqlarını təmin etmək məqsədi daşıyan strateji kəşfiyyat məlumatlarının toplanması və pozucu kiberhücumların qarışığı ilə xarakterizə olunur.

İsrail, Azərbaycan və Səudiyyə Ərəbistanı kimi ölkələri də hədəf alan yeni zərərli proqramın indiyədək əsas və ən uğurlu üsulu fişinq e-poçtları olub. 2024-cü ilin fevral ayından bəri, 50-dən çox belə e-poçt yüzlərlə alıcıya paylanıb, alıcıları zərərli linklərə klikləməklə və ya yoluxmuş qoşmaları endirməklə aldatmaq üçün hazırlanıb.

## Xristianları təhqir edən dağıstanlı bloger Moskvada saxlanılıb

**Rusiya Federasiyası Dövlət Dumasının deputatları və Rus Pravoslav Kilsəsinin nümayəndələri hüquq-mühafizə orqanlarını canlı yayımda xristian xaçını tapdalayan dağıstanlı videoblogeri cəzalandırmağa çağırıblar.**

Musavat.com Rusiya mediasına istinadla xəbər verir ki, iyulun 17-də yayımlanan qalmaqallı yayımın müəllifi saxlanılıb.

Dağıstanlı strimer (canlı olaraq video məzmun yayımlayan bloqer) Xavər Yarmaqomedovun xristianlıq əleyhinə hərəkətini azı 300 nəfər izləyib. Yayım zamanı o, taxta xaçı tapdalayaraq tüpürüb, hərəkətlərini nalayiq ifadələrlə müşayiət edib. Daha sonra o üzr istəyib və hərəkətini bununla izah edib ki, guya onu xristianların özləri vəhşiliyə təhrik ediblər və bu yolla "özünü müdafiə edib". Yarmaqomedov özünü konkret nədən müdafiə etdiyini açıqlamayıb.

Çərşənbə günü bloger saxlanılıb və ona qarşı dindarların hisslərini təhqir etdiyinə görə cinayət işi qaldırılıb. "İstintaq idarəsi Rusiya Federasiyası Cinayət Məcəlləsinin 148-ci (vicdan və din azadlığı hüququnun pozulması) maddəsi ilə cinayət işi açıb. İstintaqın məlumatına görə, müttəhim 2024-cü il iyulun 12-də Moskva şəhəri ərazisində olarkən xristian xaçını tapdalayıb. Eyni zamanda o, internet portalında canlı yayımlanan hərəkətlərini videoya çəkib. Beləliklə, şübhəli şəxs dini hissləri təhqir etmək məqsədilə ictimai hərəkətlər edib", - Moskva İstintaq Komitəsi izahat verib.

## Xeyli adama borcu olan şəxsin çürümüş meyiti tapıldı

**Beyləqanda asılmış vəziyyətdə 41 yaşlı çürümüş kişi meyiti tapılıb.**

Musavat.com APA-ya istinadla xəbər verir ki, hadisə rayonun Bolsulu qəsəbəsində qeydə alınıb.

1983-cü il təvəllüdlü Kəbirli kənd sakini Həsən Qənbər oğlu Qənbərlinin ciddi çürümə əlamətləri olan asılmış meyiti yardımçı tikilidə aşkar edilib.İlkin məlumata görə, Həsən Qənbər oğlu Qənbərlinin bir çox adama borcu olub.

Faktla bağlı Beyləqan Rayon Prokurorluğunda araş-

# "Qərbin Zəngəzur tələbi güclənir, dəhliz açılacaq..." - Ermənistanda həyəcan




**"Proseslər elə bir ssenari üzrə gedir ki, mövcud hakimiyyətin müəyyən xırda kompromis üstünlükləri əldə edə bilməsi illüziyadır".**

Bunu "məxməri inqilab"dan dərhal sonra vəzifəyə təyin edilən və bir müddət sonra istefa verən Ermənistan Dövlət Gəlirləri Komitəsinin keçmiş rəhbəri David Ananyan deyib (Axar.az).

O bildirib ki, biz hətta söhbətin nədən getdiyini qiymətləndirə bilmirlər: "Vaxtilə Ermənistanın çəkməli olduğu Mehri dəmir yolunun açılmasından danışılırdı. Vaxtilə 4-ü Türkiyəyə, 3-ü Azərbaycana olmaqla, 7 qovşaqdan bəhs edilirdi. Hakimiyyət ictimai müzakirə təşkil etmədiyi üçün bu gün nədən söhbət getdiyini bilmirəm. Bircə onu bilirəm ki, Zəngəzur dəhlizi Çindən Avropaya gedən Orta dəhlizin bir hissəsidir. Əgər Şimal-Cənub marşrutunda benefisiarlar Ermənistandan keçə bilən Hindistan və Rusiyadırsa, Orta dəhlizin benefisiarı Türk dünyası və Çindir. Zəngəzur dəhlizi Rusiya və İrana qarşı yönəlmiş geosiyasi problemi də həll edəcək".

Onun sözlərinə görə, Ermənistan hakimiyyəti Qərblə əməkdaşlıq edərək, əslində Zəngəzur dəhlizinin açılması layihəsini həyata keçirmək yolu ilə gedir.

## Rusiyadan Ermənistana gözlənilməz qadağa

**Rusiya iyulun 15-dən Ermənistan meyvə və tərəvəzlərini qəbul etməyi dayandırıb.**

Bu barədə Rusiyanın Veterinar və Fitosanitar Nəzarət Xidmətinin (Rosselxoznadzor) Ermənistan Qida Təhlükəsizliyi Müfəttişliyinin rəhbərinə göndərdiyi məktubda bildirilib. Rəsmi izahat budur ki, aprel ayından Ermənistan meyvə-tərəvəzlərində pestisidlərin olması yüksəkdir.

Məktub iyulun 4-də "Rosselxoznadzor"un sədr müavini Karmazinin imzası ilə göndərilib. Məktuba əlavə olaraq məhsullarının Rusiyaya tədarükü qadağan edilən tədarükçü şirkətlərin 18 səhifəlik siyahısı verilib ki, bu da bütün meyvə-tərəvəz istehsalçılarını nəzərdə tutur.

## "Lotu Quli"nin əsas adamlarından olan "Kürd Amo" öldürüldü




**Kriminal aləmdə "Kürd Amo" kimi tanınan Əhməd Ərəbov öldürülüb. Musavat.com Bakupost.az-a istinadən xəbər verir ki, hadisə Goranboy ərazisində baş verib.**

"Kürd Amo" "qanuni oğru" "Lotu Quli"nin əsas tərəfdarlarından biri kimi tanınırdı. Son illərdə həyatına təhlükə olduğundan Bakıdan uzaqlarda yaşadığı bildirilir. Buna görə də hadisənin kriminal qruplaşmalar arasındakı düşmənçiliklə əlaqəli olduğu ehtimal olunur.

Amma saytımızın araşdırmasına görə, "Kürd Amo" uzaq qohumu tərəfindən öldürülüb. Belə ki, onun hadisədən bir gün əvvəl Tarzan Salmanov adlı şəxslə əkin sahəsində mübahisələri olub. Ayın 16-da "Kürd Amo" mübahisəni davam etdirmək üçün idarə etdiyi avtomobillə rayonun Veyisli kəndi ərazisində onun qarşısını kəsib. Avtomobildən düşərək ona tərəf irəlilədiyini görən T.Salmanov idarə etdiyi "Ford" markalı avtomobilini "Kürd Amo"nun üzərinə sürərək, üstündən keçib. Əhməd Ərəbov yerindəcə vəfat edib. Tarzan Salmanov isə hadisə yerindən qaçsa da, bir neçə saat sonra saxlanılıb.

Qeyd edək ki, "Kürd Amo" 2021-ci ildə Cinayət Məcəlləsinin 234.4.3-cü (külli miqdarda narkotik maddə əldə etmə və satma) maddəsi ilə 2 il müddətinə həbs olunub. O, daha əvvəl dəfələrlə məhkumluq həyatı yaşayıb.

"Kürd Amo"nun mərhum "Lotu Quli"nin yaxın ətrafında olan kriminal avtoritetlərdən biri olduğu deyilir.



## Bayden postundan bir şərtlə getməyə hazırdır

**Ölkəyə rəhbərlik qabiliyyəti ilə bağlı davamlı suallarla üzləşən ABŞ prezidenti Co Bayden hakimiyyəti təhvil verməyə hazır olduğunu bildirib.**

Musavat.com xəbər verir ki, "Business Standard"ın məlumatına görə, əgər Bayden seçkilərdə qalib gəlsə, lakin səhhətinə görə ikinci müddəti başa vura bilməsə, dövlət başçısı vəzifəsini vitse-prezident Kamala Harris icra edə bilər. Lakin o, belə bir ssenarinin reallaşacağına ehtimal vermir.

Bayden bildirib ki, o, bu addımı o vaxt atardı ki, ona hansısa bir xəstəliyi olduğunu söyləsinlər. Prezident belə bir şey olmadığını deyib və ona yaşı ilə bağlı irad tutmağın düzgün olmadığını deyib.

"Mən Trampdan cəmi üç yaş böyüyəm. Düşünürəm ki, mən ondan daha yaxşı fiziki formadayam", - Bayden deyib.

O, yenidən prezident seçilsə, ikinci müddətinin sonuna kimi 86 yaşı tamam olacaq.

## İranın Ermənistana ixracı rekord həddə çatıb

**İranın Ermənistana ixrac həcmi 700 milyon dolları ötüb və tezliklə bu ölkəyə ixracda Çini keçəcəyinə ümid edirlər.**

Musavat.com teleqram kanallarına istinadən xəbər verir ki, bununla bağlı İran-Ermənistan Birgə Ticarət Palatasının sədri Hervik Yaricanyan deyib: "İran ilk dəfə olaraq Ermənistana 700 milyon dollarlıq ixraca nail olub və bu şəkildə davam etsək, Çini də keçərək bu ölkəyə ikinci ixracatçı ölkə ola bilərik".

Onun sözlərinə görə, ötən illərdə bəzi səbəblərdən, əsasən keyfiyyətsiz malların ixracı bu sahədə iki ölkənin uğur qazanmasının qarşısını alıb.

"Ermənilər İran mallarının qiymətlərinin digər ölkələrdən daha ucuz olduğunu görəndə, mütləq bizə tərəf hərəkət edəcəklər", - deyə Hervik Yaricanyan əlavə edib.

Yeni MÜSAVAT
N 125 (8498) 19 iyul 2024

**İyulun 18-də Azərbaycan Prezidenti İlham Əliyev Avropa Siyasi Birliyi 4-cü Zirvə Toplantısında iştirak etmək üçün Böyük Britaniyanın paytaxtı Londona səfər edib. O, toplantıya qatılmaq üçün Oksforddakı Blenheim sarayına gəlib.**

Dövlət başçısını Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Kir Starmer qarşılayıb. Musavat.com-un Londona ezam olunmuş əməkdaşının verdiyi məlumata görə, səfər Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Kir Starmerin dəvəti ilə baş tutub. Səfər çərçivəsində dövlətimizin başçısının bir sıra mühüm görüşləri olub.

İlham Əliyev həmin gün Macarıstanın baş naziri Viktor Orbanla söhbət edib. Dostluq şəraitində keçən söhbət zamanı ölkələrimiz arasında ikitərəfli munasibətlər və əməkdaşlıqla bağlı məsələlər müzakirə olunub. Macarıstanın baş nazirinin Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak etmək üçün Şuşaya səfəri və bu çərçivədə keçirilən görüşlər məmnunluqla xatırlanıb.

Azərbaycan Prezidenti eyni gündə İsveçrə Konfederasiyasının Prezidenti Viola Amherlə də söhbət edib. Söhbət zamanı Azərbaycanla İsveçrə arasında ikitərəfli münasibətlər və regional sülh gündəliyinin inkişaf etdirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb. İsveçrə şirkətlərinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində bərpa-quruculuq işlərinə töhfəsi müzakirə olunub. Söhbət zamanı COP29 və iqlim dəyişmələri ətrafında fikir mübadiləsi aparılıb.

İlham Əliyev iyulun 18-də həmçinin Oksfordda qarşı tərəfin müraciəti əsasında Lüksemburq Böyük Hersoqluğunun Baş naziri Lyuk Fridenlə görüşüb. Görüşdə ölkələr arasında ikitərəfli əlaqələr müzakirə olunub. Lüksemburqun baş naziri Azərbaycan və region haqqında daha çox məlumatın əldə edilməsinin və regionun sabitliyinin ölkəsi üçün vacibliyini bir daha vurğulanıb. O, Lüksemburqun regional siyasətinin balanslı xarakter daşıdığını diqqətə çatdırıb.

Lyuk Friden COP29-da iştirak edəcək. APA-nın Londona ezam olunmuş əməkdaşı xəbər verir ki, o bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Oksfordda görüşü zamanı deyib. Dövlət başçısı regional proseslər barədə məlumat verərək bölgəyə münasibətdə balanslı siyasətin və bütün tərəflərin mövqeyinə hörmətlə yanaşılmasının önəmini qeyd etdi. Görüşdə ölkələr arasında ikitərəfli münasibətlərə toxunularaq, qarşılıqlı hörmət və etimad əsasında əlaqələrin inkişaf etdirilməsi üçün böyük perspektivlərin olduğu vurğulanıb.




# Paşinyan Əliyevlə görüşdən qaçdı - kapitulyanta yaraşan əcaib hərəkətin ilginc səbəbi

## Azərbaycan Prezidenti Londonda mühüm görüşlər keçirdi; erməni baş nazirin davranışına reaksiyalar; “Ermənistan revanş iddasından əl çəkməyib...”

Azərbaycanla Lüksemburq arasında yüksək texnologiyalar, səhiyyə, investisiyalar, nəqliyyat daşımaları və digər sahələrdə əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparılıb. Söhbət zamanı Azərbaycanın Avropa İttifaqı və ittifaqa üzv ölkələrlə çox yaxın əlaqələrə malik olduğu qeyd edilib. Avropa Siyasi Birliyi platformasının müzakirələrin aparılması üçün vacib məkan olduğu bildirilib. Görüşdə Azərbaycanın COP29-a ev sahibliyi etməsinin əhəmiyyəti vurğulanıb.

Dünən Oksfordda Avropa Siyasi Birliyi 4-cü zirvə toplantısının açılış plenar sessiyası keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib. Britaniya baş nazirinin ofisinin məlumatına görə, tədbirdə 45 avropalı lider, həmçinin NATO, ATƏT və Avropa Şurasının nümayəndələri iştirak ediblər. Sammitin əsas mövzuları Ukraynada münaqişə, enerji təhlükəsizliyi, miqrasiyadır, məqsəd isə “Avropa daxilində və onun sərhədləri yaxınlığında münaqişə və qeyri-sabitliyə cavab olaraq birliyi qorumaqdır”.

Avropa Siyasi Birliyi 2022-ci ilin mayından mövcuddur. Onun yaradılmasına Fransa təşəbbüs göstərib. Birlik ildə iki dəfə sammit keçirir, 44 ölkənin liderləri dəvət olunur. Onların arasında Azərbaycan, Ermənistan, Britaniya, Gürcüstan, Moldova, Türkiyə, Ukrayna da var. Avropa siyasi birliyini sammitləri ardıcıl olaraq Çexiya, Moldova, İspaniyada keçirilib.

Sammitin planı belədir: əvvəlcə plenar sessiyanın açılışı, sonra miqrasiya, energetika və rabitə, həmçinin demokratiyanın müdafiəsi və təmin edilməsinə həsr olunmuş üç “dəyirmi masa”; sammit plenar sessiyanın bağlanışı ilə başa çatacaq (APA).

Görüş NATO-nun Vaşinqtondakı sammitindən bir həftə sonra keçirilir, həmin tədbirdə də əsas mövzulardan biri Ukrayna olub. Sammitdə Azərbaycan və Ermənistan liderləri arasında ikitərəfli görüşün keçirilməsi istisna deyil.

Məlum olduğu kimi, Ermənistanın baş naziri Nikol Paşinyan məzuniyyətini yarımçıq qoyaraq Londona gəlib. Böyük Britaniyanın Azərbaycan və Ermənistan liderlərini bir araya gətirmək cəhdi isə Ermənistanın destruktiv yanaşması səbəbindən baş tutmayıb.

**Azərbaycan Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri, Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev bununla bağlı “Report”un sualını cavablandırıb:**

**- Hikmət müəllim, Avropa Siyasi İcmasının Londonda keçirilən görüşü çərçivəsində Ermənistanla Azərbaycan arasında görüşün keçirilməsi nəzərdə tutulurdu. Bu, baş tutacaqmı?**

- Avropa Siyasi İcmasına ev sahibliyi edən Böyük Britaniya tərəfindən belə bir görüşün keçirilməsi təklifi ilə çıxış edilmişdir və bunun Münxen Təhlükəsizlik Konfransında Azərbaycan Respublikasının Prezidenti və Ermənistanın baş naziri arasında baş tutmuş görüş formatında olması təklif olunurdu. Belə ki, Münxen Təhlükəsizlik Konfransında da Almaniyanın kansleri Olaf Şolts görüşün əvvəlində iştirak etmiş və bundan sonra görüş ikitərəfli formatda Azərbaycan və Ermənistan arasında davam etmişdi. Böyük Britaniya tərəfindən ev sahibi olaraq eyni formatlı görüş təklif olunurdu. Amma Ermənistan tərəfi bundan imtina etdi. Belə ki, görüşün əvvəlində Britaniya baş nazirinin iştirakı, sonra isə görüşün Azərbaycan və Ermənistan arasında davam etməsi formasında olmalı idi. Ermənistanın bu görüşdən imtina etməsini biz onun dialoqdan və sülh gündəliyinin irəli aparılmasından geri çəkilməsi niyyətinin bir təzahürü kimi qiymətləndiririk.

Müxtəlif platformalarda Ermənistan sülh haqqında danışdığı halda sülh gündəliyinin irəli aparılmasına xidmət edən görüşdən imtina etməsi heç bir halda başadüşülən deyildir və beynəlxalq ictimaiyyət özü bunu dəyərləndirməlidir ki, Ermənistan əslində dialoq imkanlarını qiymətləndirməli, irəli aparmaq əvəzinə bundan imtina edir. Biz Böyük Britaniyanın belə bir sülh təşəbbüsünü öz tərəfimizdən yüksək qiymətləndiririk".

**Prezidentin London səfəri və Ermənistanın görüşdən imtinası barədə “Yeni Müsavat”a danışan Sosial Tədqiqatlar Mərkəzinin icraçı direktoru Sahib Məmmədov bunları söylədi:** “Biz dəfələrlə qeyd etmişik ki, Azərbaycan heç zaman Ermənistanla dialoqdan imtina etməyib. Yalnız Fransa prezidentinin Aİ formatında görüşə qatılmaq istəməsi istisna olmaqla. Azərbaycanın aydın mövqeyi var və bu mövqe beynəlxalq hüquq prinsiplərinə tam uyğundur. Ermənistanda isə vahid mövqe yoxdur. Onlar günü-günə satmaqda davam edir. Ümid edirlər ki, vəziyyət əsaslı dəyişə bilər. Ermənistan revanş iddasından əl çəkməyib”.

**S.Məmmədov deyib ki, Böyük Britaniyanın təşəbbüsü təqdirələyiqdir:** “Londonda Avropa Siyasi İcmasının görüşü çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında görüşün təşəbbüskarı da rəsmi Londondur. Əslində bildiyim qədər bu görüş ikitərəfli formada olacaqdı. Rəsmi London isə sadəcə təşəbbüskar tərəf idi. Amma indi məlum olur ki, Paşinyan görüşə hazır deyil. Görünür, İrəvan Azərbaycanın beynəlxalq hüququn prinsipinə əsaslanan və hər iki tərəfin mənafelərinə uyğun olan təkliflərinə müsbət cavab vermək iqtidarında deyil və vəziyyətin qeyri-müəyyən qalmasında maraqlıdır”.

**S.Məmmədovun fikrincə, bu məsələnin bizim üçün faydalı tərəfi odur ki, növbəti dəfə böyük bir forumun iştirakçıları Ermənistanın destruktiv mövqeyinin şahidi oldular:** “O cümlədən Ermənistanı hər addımda dəstəkləyən Lüksemburq kimi ölkələrin rəhbərləri də bunun şahidi oldu”.

**Politoloq İlyas Hüseynovun sözlərinə görə, Ermənistanın baş naziri Azərbaycan prezidenti ilə Avropa Siyasi Birliyinin Londonda keçirilən toplantısı çərçivəsində görüşməkdən imtina etməsi göstərir ki, rəsmi İrəvan sülh danışıqlarında maraqlı deyil:** “Nikol Paşinyanın bu addımının kənar güc mərkəzlərinin təsiri ilə atmasını istisna etmirəm. Adətən erməni tərəfi Qərb meydançalarında görüşlərin keçirilməsini arzulayır və buna can atırdı. Lakin burada vəziyyət fərqli oldu. Bəlkə də erməni siyasətçilər düşünürdülər ki, Azərbaycan lideri görüşə qatılmayacaq və ölkəmizin iştirakı olmadan regional prosesləri müzakirə edəcəklər. ABŞ tərəfi bundan öncə kompromislərdən danışırdı. Amma bu cür görüş üçün fürsət düşmüşkən, Ermənistanın baş naziri Nikol Paşinyan çəkindi və görüş üçün özündə iradə tapa bilmədi. İstənilən halda görüşün baş tutmaması sülh gündəliyi üçün böyük zərbə kimi qiymətləndirilir”.

Sosial mediada maraqlı paylaşım diqqəti çəkir. Belə ki, jurnalistlərin “sülh danışıqları necə gedir” sualına Azərbaycan Prezidenti “əla” işarəsi ilə cavab versə də, Paşinyan sualı cavablandırmayıb.

“Əminəm ki, bu tapşırığı Rusiya verib. Bu dəqiqə Rusiyadan Paşinyana Qərb istiqamətində olan siyasi addımlarına görə güclü təzyiqlər var. Ermənilər bu addımla Rusiyaya göstərmək istəyirlər ki, ona sadiqdirlər”.

Bu sözləri isə Axar.az-a açıqlamasında keçmiş xarici işlər naziri Tofiq Zülfüqarov Paşinyanın Azərbaycan Prezidenti ilə görüş təklifindən imtina etməsi haqda yayılan məlumata münasibətində deyib.

“Bu imtinanın sonrasını gözləmək lazımdır, çünki tədbirlər davam edir. Aydındır ki, görüşün təşəbbüskarı Böyük Britaniya tərəfidir. Bəzi mənbələr bildirir ki, ermənilər Böyük Britaniyanın vasitəçilik etməsini istəmir. Həmçinin Ermənistan mühitində müxtəlif versiyalar səslənir ki, noyabrda onlar Qərbə yönələn siyasətdən imtina etməlidir. Çünki hazırda Baydenin qalib gəlməsi şansı çox azdır və İrəvanın Qərbə yönəlik siyasətində ermənilərə təkcə Fransanın dəstəyi bəs eləməz. Ona görə də Qərblə hansısa inteqrasiya prosedurlarına ehtiyat edirlər”, - politoloq bildirib və əlavə edib ki, imtinanın səbəbini sülhdən qaçmaq kimi qəbul etmək hələ tezdir.

❑ **E.PAŞASOY, “Yeni Müsavat”**



# Gərgin keçməyən seçkiyə dair ilkin təəssüratlar

Xalid KAZIMLI

**Həlledici mərhələsi (səsvermə günü) sentyabrın 1-nə təyin olunmuş parlament seçkilərinin indiyə qədər baş tutmuş analoji seçkilərdən fərqi var: hələlik heç bir gərginlik, ajiotaj yoxdur.**

2000 və 2005-ci illərdə keçirilən parlament seçkilərinin ab-havası, atmosferi başqaydı. O zamanlar siyasi qüvvələr seçkiyə ciddi hazırlaşır, prosesdə fəallıq göstərir, necə deyərlər, seçib-seçilmək həvəsi göstərirdilər.

Ancaq indi qəribə bir süstlük var. Partiyalardan biri seçkidə iştirak edir, biri etmir, o biri tərəddüddədir, başqa biri boykot yolu tutub və sair.

Hamının toplaşaraq bir ara gəldiyi, intriqalı olsa da, koalisiya yaradıb vahid namizəd göstərdiyi, güclərini birləşdirdiyi dönəmlər keçmişdə qalıb.

O zamanlar seçki ilində medianın aparıcı mövzularından biri vahid seçki blokunun qurulub-qurulmayacağı olurdu. Partiyaların ruporu olan qəzetlər siyasi qüvvələrə təzyiq edirdi. Müxalifət blokunun vahid namizədi olmaq uğrunda kəskin mübarizə gedirdi.

Müxalifətin seçki dairələrinin 90 faizindən artığında vahid namizəd müəyyənləşdirdiyi və irəli sürüb müdafiə etdiyi 2005-ci ildən fərqli olaraq indi siyasi partiyalar seçki dairələrinin dörddə birindən belə namizəd irəli sürə bilmir.

Bunun çox səbəbləri var: başlıcası odur ki, ölkədə siyasi fəallıq azalıb, siyasi partiyalara yeni "nəfəs", "qan" gəlməyib. Meydanda yenə xalq hərəkatının artıq yaşlamış veteranlarıdır.

Uzun illər hər cür seçkilərdə heç bir mandat qazana bilməmək möhnəti müxalifət qüvvələrini yıpradıb. Köhnə vaxtların fəal seçiciləri artıq heç bir siyasi uğur gözləmirlər və seçkidə iştiraka meylli deyillər.

Vaxtilə heç bir partiyanın üzvü olmayan, amma pulu çox olan iş adamları, iddialı ziyalılar, keçmiş məmurlar seçki kampaniyasında fəallıq edər, dairə seçki komissiyalarında imza vərəqləri götürər, seçkiyə qatılardılar.

Onların çoxu özlərini bu işə elə həsr edərdilər ki, sanki parlament deputatı olmaq həyatlarının əsas kredosudur. Bəzilərinin uğur qazandığı da olurdu. Bitərəflik onların işinə yarayırdı. Hərçənd özləri heç də siyasi baxımdan bitərəf olmur, iqtidar düşərgəsinin təmsilçisinə çevrilirdilər.

Bu il o kateqoriyadan olan adamlar da hələ gözə dəymir. Yəqin ki, yaxın günlərdə o cür adamlar özləri haqqında işarə verəcəklər. Ancaq tam əminliklə demək olar ki, əvvəlki seçkilərdən fərqli olaraq, "deputatlığa namizəd olan bitərəflər" o qədər də çox olmayacaq.

Yalnız hakim partiyada seçki fəallığı yüksək səviyyədədir. Bu da onunla bağlıdır ki, Yeni Azərbaycan Partiyasının namizədi olaraq seçkiyə qatılmaq üstünlükdür. "YAP-ın deputatlığa namizədi" vəsiqəsi artıq mandatın yarısı deməkdir.

Ölkədə hər kəs bilir ki, bu seçkidə də hakim partiyadan deputatlığa namizədliyi irəli sürülənlərin 70 faizdən çoxu seçiləcək. Yəqin ona görədir ki, hakim partiyadan deputatlığa namizəd olmağın özü belə artıq təbrik edilmək üçün tutarlı səbəbdir.

Təbii ki, bəxti gətirməyən YAP namizədləri də olacaq. Onlar başqa partiyaların və partiyasız mütəxəssislərin alternativi olacaq və uduzacaqlar.

Bəzi partiyalar az namizədlə olsa da, seçkiyə qatılmağı siyasi fəallığın artırılması baxımından zəruri sayırlar. Boykot yolu tutanlar isə siyasi uğur görmədiyi seçkiyə qatılmağı izafi xərc və zəhmət sayır.

Sanki belə partiyalar üçün seçici fəallığının artması, siyasi arenada hərəkətlənmə olması o qədər də vacib deyil.

Ancaq seçkilərin ard-arda boykot edilməsi taktikası haraya qədər davam edə, nə vaxtadək effektiv ola bilər? Təcrübə göstərir ki, bu taktika ən çox iqtidar düşərgəsinə sərf edir, o, heç bir maneəyə rast gəlmədən, stress yaşamadan mandatları götürür, işinə davam edir.

Deputatlığa namizədliyi açıqlanmış şəxslərin ad-soyadını incələyəndə görürsən ki, sıralarında tanınmış adamlar, məşhur yaradıcı ziyalılar, universitet professorları yoxdur, çoxu gənc nəslə mənsub kadrlardır.

Onların deputat seçilməsi sual altında deyil, ancaq nə qədər hazırlıqlı, səriştəli deputat olacaqlarını da zaman göstərəcək.

Əslində yeni deputatlardan umacaq da böyük deyil. Cəmiyyətdə rəvan-rəvan gedən proseslə barışmışlıq ovqatı var. Ona görə də düşünmək olar ki, 1 sentyabr seçkiləri müasir Azərbaycan tarixinin ən sakit, ekstessiz seçkiləri olacaq.



# Partiya sədrlərinin seçkiyə qatıldıqları dairələr məlum oldu

## İddiaçılar arasında keçmiş bitərəf deputatlar da var

**Sentyabr ayının 1-də keçiriləcək növbədənkənar parlament seçkilərində Azərbaycanda qeydiyyatda olan 26 siyasi partiyanın əksəriyyəti iştirak etmək barədə qərar qəbul edib. Modern.az-ın məlumatına görə, bəzi partiya liderləri seçkidə iştirak etməsələr də, təşkilatın digər üzvləri namizəd kimi irəli sürülüb. Əksər partiyaların isə sədrləri namizədliyini irəli sürüb.**

Hakim Yeni Azərbaycan Partiyası (YAP) 125 seçki dairəsi üzrə namizədini açıqlayıb. Partiyanın rəhbər strukturunda təmsil olunan Əli Əhmədov 25 saylı Nizami ikinci seçki dairəsindən namizəd olacaq.

VI çağırış parlamentdə 3 deputatla təmsil olunan Vətəndaş Həmrəyliyi Partiyasının (VHP) sədri Sabir Rüstəmxanlı bu seçkidə namizədliyini irəli sürməyəcək. Onun seçildiyi dairədən həyat yoldaşı Tənzilə Rüstəmxanlının namizədliyi irəli sürülüb.

"Ana Vətən" Partiyasının (AVP) sədri Fəzail Ağamalı da seçkilərdə namizəd olmayacaq. Onun əvəzinə həmin dairədən qızı Günay Ağamalının namizədliyi partiyası tərəfindən irəli sürüləcək.

Müsavat Partiyasının başqanı İsa Qəmbər də seçkidə iştirak etməyəcəyini bəyan edib. "Mən bu dəfə namizədliyimi irəli sürməyəcəyəm, Müsavat Partiyasının seçkilərdə iştirakına ümumi rəhbərlik edəcəyəm və namizədlərimizə dəstək verəcəm", - o deyib. Müsavat seçkiyə 34 dairədən namizəd irəli sürməklə qatılıb.

AĞ Partiyanın sədri Tural Abbaslı isə 21 saylı Nəsimi-Binəqədi seçki dairəsindən namizədliyini verib.

Ümid Partiyasının sədri İqbal Ağazadə də seçkidə iştirak etməyəcəyini açıqlayıb.

Azərbaycan Demokratik Maarifçilik Partiyasının (ADMP) sədri Elşən Musayev 116 saylı Qəbələ seçki dairəsindən namizəd olacaq. Azərbaycan Xalq Cəbhəsi Partiyası (AXCP) seçkilərdə iştirak etməmək barədə qərar qəbul edib.

Azərbaycan Xalq Partiyasının (AXP) sədri Pənah Hüseyn 68 saylı Sabirabad-Şirvan seçki dairəsindən namizədliyini verib.

Azərbaycan Milli İstiqlal Partiyasının (AMİP) sədri Arzuxan Əlizadə 27 saylı Sabunçu II seçki dairəsindən namizədliyimi irəli sürüb.

Azərbaycan Demokrat Partiyasının (ADP) sədri Sərdar Cəlaloğlu 3 saylı Şahbuz-Babək-Kəngərli seçki dairəsindən namizədliyini irəli sürüb.

Müasir Musavat Partiyasının (MMP) sədri Hafiz Hacıyev isə növbədənkənar parlament seçkilərində iştirak etmək niyyətində olmadığını bildirib: "Seçkiyə hazırlıq çərçivəsində partiyadan 11 nəfərin namizədliyi irəli sürülüb. Onlardan bir neçəsinin sənədləri hazırlanaraq, müvafiq qaydada dairə seçki komissiyalarına təqdim olunub. Mən özüm isə seçkidə iştirak etmək niyyətində deyiləm".

Böyük Quruluş Partiyasının (BQP) hazırda deputatı olduğu 26 saylı Sabunçu 1-ci Seçki Dairəsindən namizədliyini irəli sürüb və seçici imzalarını toplayıb DSK-ya təqdim edib.

Demokratik İslahatlar Partiyasının (DİP) sədri Asim Mollazadə namizədliyini 22 saylı Nəsimi-Yasamal Seçki Dairəsindən irəli sürüb.

Ədalət, Hüquq, Demokratiya Partiyasının (ƏHD) sədri Qüdrət Həsənquliyevin namizədliyi 36 saylı Xətai-Suraxanı Seçki Dairəsindən irəli sürülüb.

Böyük Azərbaycan Partiyası (BAP) da seçkilərdə iştirak etmək barədə qərar qəbul edib. Sonuncu prezident seçkisində namizəd olan partiya sədri Elşad Musayev 10 saylı Binəqədi üçüncü seçki dairəsindən namizədliyini irəli sürüb.

Klassik Xalq Cəbhəsi Partiyasının (KXCP) lideri Mirhahmud Mirəlioğlu isə 43 saylı Sumqayıt İkinci seçki dairəsindən namizədliyini irəli sürdüyünü söyləyib.

Milli Dirçəliş Hərəkatı Partiyasının (MDHP) sədri Fərəc Quliyev seçkidə iştirak etmək niyyətindədir. "Növbədənkənar parlament seçkilərində həm mən, həm də partiyamız fəal iştirak etməyi planlaşdırır. Hələlik siyahı üzrə 11 nəfərin namizədliyi müəyyən olunub. Özüm də seçkilərə qatılmaqla bağlı qərar vermişəm".

Milli Cəbhə Partiyasının (MCP) sədri Razi Nurullayev isə yenidən 81 saylı İmişli seçki dairəsindən namizədliyini irəli sürüb.

Respublikaçı Alternativ (REAL) Partiyası hələlik seçkidə 13 namizədlə iştirak edəcəyini bəyan edib. Partiyanın sədri İlqar Məmmədov 22 saylı Nəsimi-Yasamal seçki dairəsindən namizədliyini verib.

Haqq Ədalət Partiyası (HƏP) seçkilərdə 9 namizədlə iştirak edəcək. Partiyanın sədri, sabiq səhiyyə naziri Əli İnsanov isə namizəd olmayacaq.

Azad Vətən Partiyasının sədri Akif Nağı namizədliyini 124 saylı Şuşa-Ağdam-Xocavənd seçki dairəsindən irəli sürüb.

Gələcək Azərbaycan Partiyasının sədri (GAP) Ağasif Şakiroğlu 8 saylı Binəqədi seçki dairəsindən namizədliyini verib.

Yeni Zaman Partiyası və Ədalət Partiyası seçkilərdə iştirak etməklə bağlı qərar verib. YZP sədri Musa Ağayevin hələlik hansı dairədən namizəd olacağı məlum deyil. Ədalət Partiyasının sədri İlyas İsmayılov namizədliyini verməyəcəyini açıqlayıb.

Vəhdət Partiyasının (VP) sədri Tahir Kərimli isə seçki ilə bağlı hələlik qərarını verməyib.

Seçki prosesi irəlilədikcə digər tanınmış simalar, bəzi deputatlar da namizədliklərini irəli sürməkdədirlər. Deputat Aqil Abbas bildirib ki, 85 saylı Füzuli-Ağcabədi seçki dairəsindən namizədliyini verəcək.

Sentyabrın 1-də keçiriləcək seçkilərdə deputat Vüqar Bayramov da iştirak edəcək. V.Bayramov 84 saylı Füzuli seçki dairəsindən namizədliyini irəli sürüb.

VI çağırış Milli Məclisin digər deputatı Sahib Alıyev də növbədənkənar parlament seçkilərinə qatılacaq. Sahib Alıyev bu dəfə Tərtər rayonundan deyil, 93 saylı Ağdaş seçki dairəsindən namizədliyini irəli sürüb. Hazırda Ağdaşın deputatı Cavid Osmanovdur. Yeni Azərbaycan Partiyası bu dəfə Cavid Osmanovun adını namizəd siyahısına daxil etməyib. YAP-ın siyahısında 93 saylı dairədən Şahmuradov Anar Raqif oğlunun namizədliyi irəli sürülüb.

Azərbaycan Vəkillər Kollegiyasının üzvü Əziz Qənbərli isə 123 saylı Kəlbəcər seçki dairəsindən namizədliyini irəli sürüb. 123 saylı dairədən YAP Aidə Əhmədovanın namizədliyini verib. Dairənin hazırkı deputatı Aqil Məmmədovdur.

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 125 (8498) 19 iyul 2024

# Erməni lobbisinə zərbə - Azərbaycana qənim kəsilən korrupsionerin qəmli sonluğu

**Xəbər verildiyi kimi, korrupsiyada ittiham olunan, qatı ermənipərəst mövqeyi ilə seçilən Nyu-Cersi ştatından amerikalı senator Robert Menendes federal korrupsiya məhkəməsi tərəfindən bütün maddələr üzrə təqsirli bilinib. İş üzrə yekun qərar təxminən 13 saat müzakirə edilərək qəbul olunub.**

## Arzuxan Əlizadə: “Bu, sadəcə, erməni lobbisinin bir şərəfsiz tərəfkeşini itirməsidir”

## Elxan Şahinoğlu: “Başqa konqresmenlərlə bağlı da cinayət işləri açıla bilər”



Menendes rüşvətxorluq, fırıldaqçılıq, xarici agent kimi fəaliyyət göstərmək və ədalətə maneə törətmək kimi 16 federal ittiham üzrə mühakimə olunsa da, özünü təqsirli bilməyib.

Senatoru 20 ilə qədər həbs gözləyir. Bu işdə onun həyat yoldaşı erməni əsilli Nadine Menendes də ittiham olunub, lakin onun məhkəməsi xəstəliyi səbəbindən qeyri-müəyyən müddətə təxirə salınıb.

Nyu-Cersi ştatından olan iş adamları Vael Hana və Fred Daybes də onlara qarşı irəli sürülən bütün ittihamlar üzrə təqsirli biliniblər.

Qeyd edək ki, Senatın Xarici Əlaqələr Komitəsinə rəhbərlik etmiş qatı ermənipərəst Robert (Bob) Menendes uzun illər ABŞ-dakı erməni lobbisinin əsas simalarından biri olub.

Bu hadisə ABŞ-dakı erməni lobbisinə nə dərəcədə zərbə vura, onun dilini və əlini gödək edə bilər?

**Azərbaycan Milli İstiqlal Partiyasının (AMİP) sədri Arzuxan Əlizadə** “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, ermənipərəst Robert Menendesin adı uzun illərdir ki, rüşvət və korrupsiya qalmaqalında hallanır. Partiya sədri Menendesin həyat yoldaşının adının da prosesdə hallandığına diqqət çəkdi: “Nəhayət, məhkəmə istintaqı ilə rüşvət və korrupsiya faktları təsdiqlənib. ABŞ qanunvericiliyinə görə, ayrı-ayrı maddələr üzrə həbs müddətləri toplanır. Bunu nəzərə alaraq, rüşvətxor, ermənipərəst senatoru 200 ildən çox həbs müddəti gözlədiyini deyə bilərik. Təbii ki, bu, erməni lobbisinə zərbə olacaq. Amma unutmamalıyıq ki, bu lobbinin Fransa Senatında, Nümayəndələr Palatasında, eləcə də Avropa Parlamentində rüşvət və korrupsiya obyekti olan tərəfdarları az deyil. Bu, sadəcə, erməni lobbisinin bir şərəfsiz tərəfkeşini itirməsidir.

Hesab edirəm ki, Azərbaycanın müxtəlif ölkələrdəki lobbi və diaspor təşkilatları ermənipərəst siyasətçilərlə bağlı araşdırmalar aparmalı, onların rüşvət və korrupsiya qalmaqalları ilə bağlı məsələləri ictimailəşdirməli, imkan daxilində qanunvericilik səviyyəsinə gətirib çatdırmalıdırlar. Ermənilər bu cür siyasətçilərdən hər zaman istifadə ediblər. Bundan sonra da belə cəhdlər davam edəcək. Bu baxımdan biz diqqətli olmalıyıq, diaspor və lobbi təşkilatlarımız isə fəallıq göstərməlidirlər".

**“Atlas” Araşdırmalar Mərkəzinin sədri, politoloq Elxan Şahinoğlu** “Yeni Müsavat”a şərhində qeyd etdi ki, ABŞ-da konqresmenlərin bir çoxu milli və təhlükəsizlik maraqlarından çıxış etmir, qrup, lobbi maraqları, pul aldıqları şəxslərin maraqlarını qoruyur: “ABŞ-da az qala hər həftə atışmalar olur, vətəndaşlar ölür. Amma hələ də silahla bağlı məhdudiyyət qoyulmur. Çünki ABŞ Konqresindəki mühafizəkar qrup 200 il əvvəl konstitusiyaya qəbul edilmiş maddəni dəyişmək istəmir. Halbuki 200 il keçib, dünya dəyişib, ABŞ özü də dəyişib. Mühafizəkar qrup silah lobbisinin maraqlarını müdafiə etdiyi üçün silah daşınması ilə bağlı qanun dəyişmir.

Etnik qruplara baxışda da eyni siyasət yürüdülür. Erməni lobbisi ABŞ-da güclüdür, siyasi fəallığı olduğu üçün pul ilə bir çox konqresmeni ələ alır. Azərbaycanla əməkdaşlıq ABŞ-ın milli və təhlükəsizlik maraqlarına uyğundur. Ermənistan Rusiyanın müttəfiqidir, Rusiyadan silah-sursat alır. Ermənipərəst konqresmenlər, o cümlədən Bob Menendes uzun illər ərzində ermənilərin maraqlarından çıxış edib, Azərbaycanın əleyhinə fikirlər səsləndirib, ölkəmizə qarşı sənədlərin qəbuluna çalışıb. Menendesi həbs təhlükəsi gözləyir. Araşdırılsa, onun erməni lobbisindən kifayət qədər pul aldığı üzə çıxar, yoldaşı da erməni əsillidir. Robert Menendesin ermənipərəst mövqeyə çəkilməsində həyat yoldaşının da rolu olub. O biri konqresmenlərin erməni lobbi ilə siyasi maraqları üst-üstə düşmür. Səs qazanmaq məqsədilə erməni lobbisindən dəstək ala bilərlər.

Amma elə ştatlar var ki, ermənilərin sayı çox olmasa da, konqresmen onları müdafiə edir. Çünki erməni lobbisinə maliyyə bağlılığı var. Erməni lobbisi konqresmenləri bu yolla ələ alır. Təkcə Menendes deyil, araşdırılsa, bir qrup konqresmenlə bağlı ciddi cinayət işləri açıla bilər. Menendes hadisəsinin digər ermənipərəst konqresmenlərə təsiri olub-olmayacağını söyləmək çətindir. Vaxtilə Azərbaycana qarşı “907-ci düzəliş” sırf erməni lobbisinin pulu ilə qəbul edilmişdi. O zaman Menendesin adı çox hallanmırdı, başqa konqresmenlər üzdə idi. Onlardan ən məşhuru Frenk Pollone idi. O, təxminən, 30-35 ildir ki, ancaq erməni maraqlarından çıxış edir. Həqiqət və ədalət prinsipləri ona yaddır. Araşdırma aparılsa, erməni lobbisindən aldığı milyonlarla məbləğ üzə çıxar. Odur ki, Menendes olmasa da, başqaları da tapılacaq".

Yeri gəlmişkən, Bob Menendes istefa verməcəyini bildirib. “Reuters” yazır ki, Menendes istefa vermək niyyətində olmadığını deyib.

“Mən istefa verməmişəm və müttəfiq adlandırılan heç kimlə də danışmamışam. Mənə elə gəlir ki, məni bəyanat verməyə məcbur etmək istəyirlər. Məni tanıyan hər kəs bilir ki, bu, uğur qazanmağın ən pis yoludur”, - deyə o bildirib.

Mənbə yazır ki, 16 cinayət işi üzrə təqsirli bilindikdən sonra istefaya getməsi üçün Menendesə Nyu-Cersidən təzyiqlər artır. Senator isə məhkəmə binası qarşısında jurnalistlərə verdiyi müsahibədə apelyasiya şikayəti verəcəyini nəzərə çatdırıb.

Xatırladaq ki, Menendeslə bağlı istintaq 2022-ci ilin payızından davam edir. ABŞ prokurorluğu hesab edir ki, senator “rəsmi mövqeyindən” istifadə edərək “gizli şəkildə Misirə ABŞ hökumətinin məxfi məlumatlarını vermək” istəyib. O, həmçinin “üç nyu cersili iş adamına qarşı cinayət təhqiqatlarına təsir göstərməkdə” ittiham olunur. İyulun 16-da münsiflər heyəti Menendesi 18 maddədən 16-sı üzrə təqsirli bilib. Axtarışlar zamanı siyasətçidən 13 qızıl külçə, dəbdəbəli Mercedes-Benz markalı avtomobil və 550 min dollardan çox nağd pul götürülüb. Menendes günahı rədd edir və apelyasiya şikayəti verməyi planlaşdırır. Onun işi üzrə hökm oktyabrın 29-da çıxarılacaq.

2023-cü ilin payızında Menendes ona qarşı irəli sürülən ittihamlara görə ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin sədri vəzifəsindən istefa verib.

❑ **Nigar HƏSƏNLİ, “Yeni Müsavat”**

# ABŞ dövlət katibinin müavini: "Rusiyanın Cənubi Qafqaza faydası yoxdur"

**İrəvanın KTMT-yə üzvlüyü məsələsi müstəsna olaraq Ermənistan hökuməti tərəfindən həll edilir.**



Musavat.com erməni mediasına istinadən xəbər verir ki, bunu yerli mediaya (Etk agentliyi) ABŞ dövlət katibinin mülki təhlükəsizlik, demokratiya və insan haqları üzrə müavini Üzra Zeya söyləyib.

“ABŞ Fransa kimi Ermənistanın müdafiə qabiliyyətinin inkişafı prosesinə və Silahlı Qüvvələrin islahatlarına dəstək verə bilərmi?”, - deyə yerli jurnalisitn verdiyi suala ABŞ rəsmisinin cavabı belə olub:

“Tərəfdaş Qartalı” hərbi təlimlərinə gəlincə, qeyd etmək istəyirəm ki, bu, müntəzəm təlimlərin keçirilməsinə, hazırlığın və qarşılıqlı fəaliyyətin artırılmasına, sülhməramlı fəaliyyətə yönəlmiş əvvəlcədən planlaşdırılmış təlimlərdir. Bu səylərə bizim Müdafiə Nazirliyimiz vasitəsilə ABŞ tərəfi rəhbərlik edir.

Biz müdafiə və mülki təhlükəsizlik sahəsində çoxillik səmərəli əməkdaşlığımızın dərinləşdiyini görürük. Müdafiə Nazirliyinin Dövlət Tərəfdaşlığı proqramı çərçivəsində Ermənistanla Kanzas Milli Qvardiyası arasında əməkdaşlığı qeyd etmək istərdim.

Daha bir sual: “Ermənistanın KTMT-yə üzv olması erməni-amerikan hərbi əməkdaşlığının dərinləşməsinə maneədirmi? Üzvlüyün ləğvi bu qarşılıqlı əlaqəni asanlaşdıra bilərmi?”

ABŞ DD yetkilisinin cavabı: “İrəvanın KTMT-yə üzvlük məsələsi müstəsna olaraq Ermənistan hökuməti tərəfindən həll edilir. Biz bu qərara hörmət edirik. Qeyd etməliyəm ki, müdafiə və mülki təhlükəsizlik məsələlərində əməkdaşlığımız dərinləşməkdə davam edir və Ermənistan KTMT-nin üzvü olaraq qalır.

Lakin Rusiyanın hərbi mövcudluğunun Cənubi Qafqazda regional sülh və sabitliyə töhfə verdiyinə dair heç bir arqument yoxdur", - deyə Uzra Zeya qeyd edib.

# Bayden İlon Maska hücum etdi - şok açıqlama

**ABŞ prezidenti Co Bayden amerikalı sahibkar İlon Maskı bu ilin noyabrında ölkədə keçiriləcək seçkilərin nəticələrini almağa cəhd etməkdə ittiham edib.**



Musavat.com xarici agentliklərə istinadən xəbər verir ki, bu barədə o, “X” sosial şəbəkəsindəki hesabında yazıb.

“Mən İlon Mask və onun zəngin dostlarının bu seçkiləri satın almaqla bağlı səylərindən bezmişəm”, - deyə ABŞ dövlət başçısı qeyd edib.

Qeyd edək ki, İlon Mask illərdir hər iki partiyanın namizədlərinə ianələr köçürüb. Lakin bu ilin mart ayında o, ABŞ-ın Respublikaçılar Partiyasının iqtidarına ehtiyacı olduğunu, əks təqdirdə, “ölkənin batacağını” söyləyib. Bununla İlon Mask da qarşıdakı seçkilərdə Donald Trampa açıq dəstək verdiyini bildirmiş olub.

# Trampa “LAZIM” qoşdular: ABŞ ordusu xaricdə...

**“Donald Tramp prezident seçkilərində qalib gələrsə, ABŞ "yalnız lazım gəldikdə" xaricdə hərbi gücdən istifadə edəcək". Musavat.com xarici agentliklərə istinadən xəbər verir ki, bu barədə Respublikaçılar Partiyasından vitse-prezidentliyə namizəd Ceyms Devid Vens bəyan edib.**



O, bu çıxışını Viskonsin ştatının Milouki şəhərində keçirilən Respublikaçıların Milli Qurultayında edib: “Biz uşaqlarımızı yalnız lazım gəldikdə müharibəyə göndərəcəyik. Prezident Tramp İŞİD-in məhv edilməsi və bir çox digər hərəkətləri ilə göstərdi ki, biz vurduğumuz zaman güclü zərbə endirmişik ”, - deyə Vens vurğulayıb.

YENİ MÜSAVAT
N 125 (8498) 19 iyul 2024

# Trampa atılan güllələrdən biri Ermənistana "dəyib" - İrəvanda təlaş

## Onun hakimiyyətə qayıda biləcəyindən ermənilər ona görə qorxuya düşüblər ki...

**ABŞ-ın sabiq prezidenti Donald Trampın Pensilvaniyada seçki mitinqi zamanı sui-qəsd cəhdinə məruz qalması ilə reytinqinin artması erməni ictimai fikrində narahatlıq yaradıb. "Sputnik Ermənistan" Trampı aşağılamaqla yanaşı, "güllələnmiş qulağın yeni ABŞ-ın simvolu" olacağı haqda "həyəcanlı" məqalə yayıb (Axar.az).**

Bildirilir ki, son sorğuya görə Trampın reytinqi 66%, Baydenin 15%, Kamala Harrisin isə 10%-dir. Bu isə Trampın ölkə prezidenti olmaq ehtimalını çox yüksəldir. Co Baydeni yalnız "fors-major" xilas edə bilər.

Məqalədə vurğulanıb ki, Tramp prezident olacağı halda Ermənistan üçün yaxşı heç nə gözlənilmir. Çünki Tramp hər şeydən öncə "Amerika amerikalılar üçündür" ideyasının təbliğinə diqqət yetirir ki, bu da respublikaçıların səylərini daha çox daxili problemlər üzərində cəmləşdirmək siyasətində əksini tapıb. Trampın qlobal neft-qaz sektoruna ciddi önəm verəcəyi və buna görə də Cənubi Qafqazda Azərbaycanı xüsusi dəstəkləyəcəyi ehtimalını irəli sürən müəllifin fikrincə, ABŞ-ın yeni administrasiyası azərbaycanmeyilli olacaq, Türkiyə və Azərbaycanla işləyəcək. Trampın bunun üçün başqa səbəbi də var - İrana sərt münasibəti, israilyönlü olması...

İsrail isə Azərbaycanın strateji tərəfdaşıdır. Məqalədə habelə iddia edilib ki, Tramp "Ermənistanın düşmənlərinin tərəfində olacaq". Erməni siyasi kəsimində narahatlığın daha bir səbəbi isə odur ki, Tramp "tarazlaşmaya" meylli siyasətçi deyil, ABŞ maraqlarından çıxış edir və birbaşa sözünü deyir. Ona görə də o, Azərbaycanla birgə addım atacaq və qətiyyən "balans" saxlamayacaq.

Belədirmi? Həqiqətənmi Tramp Bakı ilə işləyəcək, "erməni məsələsi"nə arxa çevirəcək? Onu ABŞ-dakı erməni seçicilərin səsi maraqlandırmırmı?

**Deputat Azər Badamov Trampa Ermənistan kimi ölkələrin lazım olmadığını qeyd etdi:** "Pensilvaniyada Trampa atılan güllə onun fiziki olaraq aradan götürülməsinə hesablanmışdısa, bu güllə əksinə, onun qələbəsinin daha da inamlı olmasına yol açdı. Trampa atılan güllə dünya nizamında yeni bir dönüş yaradacağına olan ümidləri artırdı. Çünki Bayden hakimiyyəti dünyada müharibələrin qızışması və ədalətsizliyin dəstəklənməsi ilə yadda qalır. Bayden amerkanların maraqlarını ayaq altına atdı və bu gün ABŞ heç vaxt olmadığı qədər siyasi-iqtisadi böhranla üz-üzədir. Tramp isə biznesmendir. O, hər şeyə mənfəət gözü ilə baxır.

Əslində Trampın hakimiyyətə gəlməsində varlanmaq məqsədi yoxdur. Hətta o, keçən prezidentlik dövründə




özünə simvolik olaraq 1 dollar əmək haqqı təyin etmişdi. Onu maraqlandıran ABŞ-ın nüfuzu və amerkanların milli maraqlarıdır. Bu baxımdan Trampın hakimiyyətə gəlişi ABŞ-ın bu gün iştirak etdiyi və qlobal iqtisadiyyatda fəsadlar yaratdığı siyasətini dəyişəcəyini hesab edirəm. Məsələn, Tramp indidən Rusiya-Ukrayna müharibəsini prezidentlik səlahiyyətlərini alana qədər bitirəcəyinə söz verir. O cümlədən Tramp üçün Ermənistan kimi başqalarının hesabına yaşayan ölkələr lazım deyil. Çünki biznesmen hər şeyə mənfəət gözü ilə baxır.

Ermənistan ABŞ-a nə verə bilər? Təbii ki, heç nə. Əksinə, Ermənistan erməni lobbisinin dəstəyi ilə ABŞ-dan özləri üçün nə isə bir şey qopartmağa çalışır. Trampın erməni lobbisinin dəstəyinə ehtiyac yoxdur. Ona görə ki, bu gün reytinqi o qədər yüksəkdir ki, onun seçkidə qalib gəlməsinin qarşısını ancaq sui-qəsd ala bilər. Erməni lobbisi Tramp üçün o qədər maraqlı kütlə deyil. Tramp Cənubi Qafqazla bağlı siyasətini müəyyənləşdirəndə iqtisadi imkanları güclü ölkəni seçəcək. Çünki iş adamı iqtisadi imkanların güclü olmasının siyasi kursunun uğurlu olmasına dəstək verəcəyini yaxşı başa düşür. Ona görə də onun hakimiyyətinə gəlməsindən ermənilər qorxuya düşüblər və ABŞ-ın Ermənistana olan baxışlarının dəyişəcəyinin fərqindədirlər.

Tramp İsrailin dostudur. Tramp ABŞ-Türkiyə münasibətlərinə dəyər verir. O, Rusiya ilə əməkdaşlığın yenidən qurulmasına baxacaq. Çünki dünya təbii resurslarının 40%-dən çoxu Rusiyanın ərazisindədir. Bu gün Rusiyasız dünya iqtisadiyyatının yaşaması mümkün deyil. Ona görə ki, dünya əhalisi artdıqca təbii resurslara tələbat artır. Tramp Rusiyaya tətbiq olunmuş sanksiyaların ləğv olunmasına çalışacaq. Beləliklə, onun hakimiyyətə qayıdışı dünyada baş verən ədalətsizlikləri sonlandıracaq və yenidən qarşılıqlı anlaşma əsasında əməkdaşlıq mühitinin qurulacağını hesab edirəm. O cümlədən o, ABŞ-ın zəli kimi qanını soran düşmənlərimizin əleyhinə işləyəcək. Tramp Cənubi Qafqaz regionuna sülhün gəlişini sürətləndirəcək".

**Siyasi şərhçi Rusif Məmmədsoy Trampın Azərbaycana xarici siyasətində üstünlük verməsini təsadüfi saymır:** "Donald Trampın Azərbaycana münasibəti demokratlardan fərqli olaraq daha müsbətdir. Təsadüfi deyil ki, məhz onun hakimiyyəti illərində Azərbaycan Vətən müharibəsinə başlayaraq tarixi zəfərə imza atdı. Ondan sonra hakimiyyətə gələn Co Bayden administrasiyası ilə problemlər yaşadığımız da göz önündədir. Bütün bunların fonunda əslində Trampın hakimiyyətə gəlməsi bizim də maraqlarımıza xidmət edir. Onun Ermənistana münasibətinə gəlincə, sabiq prezident biznesmen olduğu üçün onun əsasən iqtisadi maraqlar diqqətini cəlb edir. Ermənistan dalanda olan, dənizə çıxışı olmayan, heç bir iqtisadi perspektiv vəd etməyən bir ölkədir. Azərbaycan isə Cənubi Qafqazın lider dövləti, Avropa ilə çox ciddi ticarət dövriyyəsi olan, İpək yolunun ən vacib hissəsində yerləşən, həm Qərblə, həm də Şərqlə normal münasibətlər saxlayan və Rusiyanın da hesablaşdığı bir dövlətdir. Belə olduğu təqdirdə, Trampın Azərbaycana üstünlük verməsi təsadüfi deyil.

Məsələnin digər tərəfi isə daxildəki erməni lobbisidir. Erməni lobbisinin əsasən demokratlarla işlədiyini bilirik, Tramp isə xüsusilə yəhudi lobbisinə müraciət edir. Təsadüfi deyil ki, onun seçki kampaniyasının ana xəttini həm də İsraili müdafiə məsələləri təşkil edir. Təbii ki, hər şey bununla yekunlaşmır. Nəzərə almaq lazımdır ki, məhz Trampın hakimiyyəti illərində ABŞ-la Türkiyə arasında ciddi çatlar yaranmışdı. Azərbaycan və Türkiyənin xarici siyasət kursu demək olar ki, bir hədəfə kökləndiyi üçün Trampın Türkiyə ilə münasibətləri də Azərbaycan-ABŞ münasibətlərinin gələcək taleyində kilid rolunu oynaya bilər. Əgər proseslərə qlobal miqyasda baxası olsaq, Trampın İrana münasibəti hər birimizə bəllidir. Türkiyənin Yaxın Şərqdə qarşısında duran qüvvələrdən biri məhz İrandır. İran və ona bağlı olan proksi qüvvələr Trampın Yaxın Şərq siyasətində Türkiyə ilə yaxınlaşmaya gətirə bilər.

Lakin bütün bunlar o demək deyil ki, hazırda Türkiyə ilə ABŞ düşməndir. Hər iki ölkə eyni hərbi alyansda təmsil olunur və ilk ikiliyi bölüşür. Donald Tramp bir çox məsələlərə biznesmen kimi yanaşdığı üçün NATO-nun hərbi xərclərini azaltmaq sevdasına da düşə bilər. O zaman Avropa ölkələri ciddi təhdid qarşısında qala bilər ki, bu zaman da ortaya Türkiyə amili çıxır. Türkiyə NATO ölkəsi olaraq əslində hazırda Şərqdən gələ biləcək təhdidləri önləyən ən vacib ölkədir. Bu nöqteyi-nəzərdən Trampın bu dəfə hakimiyyətə gələcəyini ehtimal etsək, Türkiyənin rolu daha da arta bilər".

**Politoloq Turan Rzayev də Trampın Baydenlə müqayisədə Azərbaycana münasibətinin daha loyal olduğunu söylədi:** "Trampın yenidən prezident seçilməsini istəyən ölkələr var. Misal üçün, Türkiyə, Rusiya buna misal ola bilər. Onun seçilməsini istəyən qüvvələr daha çox milli dövlət və çoxqütblü dünya siyasi sistemini dəstəkləyənlərdir. Tramp özü də prezidentlik dönəmində bu istiqamətdə siyasət aparmış, ölkə xaricindəki ABŞ qüvvələrini geri çağırmışdı. Bundan başqa, o, ABŞ-ın dünya ağalığını mənasız hesab etmişdi. Tramp həmçinin Azərbaycan üçün müsbət sima idi. Xüsusilə onun dövründə ABŞ Cənubi Qafqaza daha az diqqət yetirdi və beləliklə, rəsmi Bakı istəklərinə nail ola bildi. Ümumi mənada isə Trampın Azərbaycana baxış bucağı Baydenlə müqayisədə daha loyaldır. Misal üçün, bu gün ABŞ Ermənistan-Azərbaycan danışıqları prosesinə diqqət edir, vasitəçi kimi sülhə nail olmağa çalışır. Amma Vaşinqton bunu sülhdə pay sahibi olmaq naminə edir. Yəni Bayden administrasiyasının rəsmi Bakıya baxışı elə də səmimi deyil. Tramp isə ənənəvi ABŞ prezidentlərindən fərqlidir. O, Bakı ilə işləyəcək demək tam doğru olmaz. Düşünürəm ki, o, Cənubi Qafqazla o qədər də maraqlanmır. Onu düşündürən ABŞ-ın xarici borcu və miqrant məsələləridir. Lakin xarici siyasətdə münaqişələrin bitməsinə çalışa bilər. O ki qaldı ermənilərin səsinə, Trampı başda Texas olmaqla əksər cənub ştatları dəstəkləyir. Yəni onlarla müqayisədə ermənilərin səsi elə də həlledici deyil".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**



## Azərbaycan bu təşkilata müşahidəçi olmaq üçün müraciət etdi

**Azərbaycan Şanxay Əməkdaşlıq Təşkilatına (ŞƏT) müşahidəçi ölkə statusu almaq üçün müraciət edib. Musavat.com Oxu.az-a istinadla xəbər verir ki, bu barədə Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) Katibliyi yanında İran İslam Respublikasının milli əlaqələndiricisi Mehrdad Kiyaei xəbər verib. Onun sözlərinə görə, Azərbaycanla yanaşı, Ermənistan, Banqladeş, Kamboca və Şri-Lanka da müraciət edən ölkələr siyahısındadır.**

"Bu ölkələr (Banqladeş istisna olmaqla) dialoq tərəfdaşı statusunu müşahidəçi statusuna dəyişmək istəyirlər. Biz, prinsip etibarilə, bu məsələyə baxmağa, həmçinin müvafiq ərizəçilər və təşkilatın üzv dövlətləri ilə razılaşdırılaraq müəyyən bir nəticəyə gəlməyə hazırıq", - deyə Mehrdad Kiyaei bildirib.

O vurğulayıb ki, onlar əvvəlcə müşahidəçi statusu almalıdırlar, yalnız bundan sonra tamhüquqlu iştirakçı ola bilərlər.

"Banqladeş dialoq tərəfdaşları sırasına daxil deyil, lakin müşahidəçi statusuna gedən yolda bu mərhələni keçmək olar. Bunun üçün təşkilatın bütün üzvlərinin razılığı lazımdır", - deyə Kiyaei əlavə edib.

# Fərid Səfərlinin azadlığı tezləşə bilər - Tehrandan yeni ümid işığı

## İranşünas: "Pezeşkian Azərbaycanla münasibətlərin normallaşmasını nümayiş etdirmək üçün Fəridi azadlığa buraxa bilər"



**"Azərbaycan səfirliyinin Tehranda fəaliyyətə başlaması İranda qanunsuz həbsdə saxlanılan Azərbaycan vətəndaşı olan tələbəmizin hüquqlarının qorunması işinə də dəstəkdir".**

Bu sözləri politoloq Elxan Şahinoğlu Tehrandakı səfirliyimizin fəaliyyətinin yeni prezident Məsud Pezeşkianın dövrünə düşməsini şərh edərkən deyib.

Söhbət İranda haqsızcasına həbsdə saxlanılan Fərid Səfərlidən gedir. Bəs səfirliyin bərpası ilə azərbaycanlı tələbənin azadlığı tezləşə bilərmi?

**Fərid Səfərlinin anası Dilarə Əsgərova** "Yeni Müsavat"a Azərbaycan səfirliyinin Tehranda fəaliyyətə başlamasından ümid yarandığını deyib: "Yaxşı oldu ki, səfirliyimiz açıldı, gedib Fəridi ziyarət edərlər. Bəlkə ekstradisiyası üçün də işlər görərlər".

**Orta Doğu Araşdırmaları Mərkəzinin sədri, İranşünas Sədrəddin Soltan mövzu ilə bağlı qəzetimizə bunları dedi:** "Fərid Səfərliyə keçən ilin avqustunda Tehran hakimiyyəti iki il həbs verdi. Onun ittihamı casusluq etmək niyyəti olub maddəsilə əvəzləndi. O deməkdir ki, Tehran hakimiyyəti Fərid Səfərlini edam etməkdən uzaqlaşdı. Onu azadlıqdan məhrum etməklə kifayətləndi. Fərid Səfərlinin həbsi Azərbaycanın Tehrandakı səfirliyinə terror hücumundan sonra baş verdi. Tehran hakimiyyəti bu yolla Azərbaycana təzyiq etməyə çalışdı. Amma bu təzyiqlər nəticəsiz qaldı.

Tehran hakimiyyəti göstərmək istəyirdi ki, Azərbaycan İran haqqında pozucu fəaliyyətlə məşğuldur, Fərid Səfərli də bunun nümunələrindən biridir. Çünki ondan əvvəl də ayrı-ayrı hadisələrdə İran rəsmiləri Azərbaycanın adını müxtəlif xoşagəlməz hadisələrdə hallandırırdı. Reallıqda bunların heç biri təsdiqlənmədi. Yeni hökumət Azərbaycan-İran münasibətlərində ancaq ölkənin ali rəhbəri Xameneinin tapşırıqlarını icra etməklə fəaliyyət göstərə bilər. Məsud Pezeşkian və onun kabineti xarici siyasət kursu müəyyənləşdirmir. Kursu Xamenei müəyyənləşdirir və prezident aparatı, hökumət icra edir.



Sədrəddin Soltan

Azərbaycan səfirliyinin Tehranda fəaliyyətini bərpa etməsi İranın ötən bir il ərzində Azərbaycanla apardığı danışıqların nəticəsidir. Müxtəlif məsələlərdə atdığı addımların, eləcə də İbrahim Rəisi ilə Azərbaycan Prezidenti İlham Əliyevin görüşü, su anbarında iştirakları ölkələr arasında münasibətlərin normallaşmasının siqnalı idi. Bunun nəticəsi olaraq səfirliyin açılması addımı atıldı. Səfirliyin fəaliyyəti, Azərbaycan səfirliyinin Tehranda fəaliyyətə başlamasının Pezeşkianın prezident olması ilə heç bir əlaqəsi yoxdur.

Perspektivdə nə ola bilər? Azərbaycanın Tehrandakı səfirliyi Fərid Səfərlinin azadlığa çıxması istiqamətində İranın uyğun qurumları ilə danışıqlar apara bilər. İşə yenidən baxılmasına dəstək verə bilər. Azərbaycan tərəfinin erirazlarını çatdıra bilər. Pezeşkian isə bunu dəyərləndirə bilər. Fərid Səfərlinin azadlığa çıxmasına o qədər çox qalmayıb. Ola bilər bu proses sürətlənsin. Bunu da Tehran hakimiyyəti xoşməramlı jest kimi göstərər. Bütün olanlar göstərir ki, Fərid Səfərli günahsızdır və Tehran hakimiyyəti Azərbaycana qarşı xoş olmayan münasibətinin nəticəsidir. Pezeşkian Azərbaycanla münasibətlərin normallaşmasını nümayiş etdirmək üçün Fərid Səfərlini azadlığa buraxa bilər".

Xatırladaq ki, Azərbaycan vətəndaşı, Almaniyanın Yena Universitetinin tələbəsi Fərid Səfərlinin 2023-cü il fevralın 20-də İrana səfərə getdiyi, lakin martın 4-dən ondan xəbər alınmaması ilə bağlı müraciət Xarici İşlər Nazirliyinə martın 9-da daxil olub. Fərid Səfərli İrana səfərindən bir müddət əvvəl Almaniyanın Yena şəhərinə praktika üçün gəlmiş İran vətəndaşı olan bir qadınla tanış olub.

O, praktikası başa çatdıqdan sonra İrana qayıdıb. Buna baxmayaraq, onlar arasında telefon əlaqəsi olub. Onlar qərarlaşıblar ki, İstanbulda görüşsünlər. Fərid İstanbula gedib və bu zaman onun tanış olduğu qadının vizası düzəlməyib. Bundan sonra Fərid İstanbuldan İrana gəlib. Uzun müddət Fərid Səfərlinin taleyindən məlumat almaq mümkün olmayıb. Yalnız 2023-cü il iyunun 1-də onun İranda casusluq ittihamı ilə həbs edildiyi məlum olub. Sonradan ona qarşı irəli sürülmüş "casusluq" ittihamı "casusluq etmək niyyəti" ittihamı ilə əvəz olunub. Məhkəmə Fərid Səfərli barəsində 2 il həbs hökmü çıxarıb.

Fərid Səfərli məhkəmədə ittihamı və hökmü qəbul etmədiyni bildirib. Azərbaycanın baş prokuroru Kamran Əliyev 2023-cü il sentyabrın 14-də Bakıda səfərdə olan İranın baş prokuroru Mohammad Kazem Movahedi-Azadi ilə görüşündə Fərid Səfərli ilə bağlı cinayət işi ətrafında müzakirə aparıb. Daha sonra Tehranın Apelyasiya Məhkəməsi Fərid Səfərli ilə bağlı hökmdən verilən apelyasiya şikayətini təmin etməyib.

❑ **Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**

# "Atam rəhmətə gedəndə həmin dükan sahibi gəlib dedi ki..."-Telman Adıgözəlovun oğlu





**"Atam ailəsinə, övladlarına, yaxınlarına çox bağlı biri idi. Əlbəttə ki, hər valideyn kimi o da övladlarının xoş gününü görməyi arzu edirdi. Təəssüf ki, nə mənim, nə də bacımın toyunu görmədi. Həyat onu bizdən tez aldı... Nə edə bilərdik? Bu da onun taleyidir".**

Musavat.com bildirir ki, bunu Moderator.az-a açıqlamasında xalq artisti Telman Adıgözəlovun oğlu Tural Adıgözəlov deyib. O daha sonra əlavə edib.

"Bu gün doğum günüdür. Doğum günlərini hər zaman yaxınlarının, ailəsinin əhatəsində qeyd edərdi. Dostları, tanışları çox idi. Hər il olduğu kimi, həm doğum, həm də anım günlərində atamın məzarını ziyarət edib, dualar oxuyuruq. Nəinki bu günlərdə, adi günlərdə də. Atam Fatmayı kəndində dəfn olunub. Hər dəfə övladlarımı da aparıb məzarını ziyarət edirik. Mənim oğlum onun adını daşıyır", - deyə o bildirib.

**Tural Adıgözəlov bildirib ki, atası geyinib-keçinməyi çox sevərdi:** "Geyim onun ən yaralı yeri idi. Hər ay özünə mütləq yeni geyim almalı idi. Bakıda olan ən məşhur geyim dükanlarının sahibi onu tanıyırdı. Yeni nəsə gələn kimi birinci atama zəng edərdilər. Atam rəhmətə gedəndə geyim dükanlarının birinin sahibi başsağlığı verməyə gəlmişdi. Bizə pul qaytarıb dedi ki, atanız özünə gödəkçə sifariş edib, pulunu da öncədən ödəyib".

**Tural Adıgözəlov deyib ki, atası həyatda ciddi biri olub**: "Baxmayaraq ki, komik rollar oynayırdı, amma həyatda çox ciddi biri idi. Şit zarafatları sevməzdi və heç vaxt da etməzdi. Müsahibələrinin birində demişdi ki, istəyirəm aktyorlar yaxşı məvacib alsınlar, yaxşı yaşasınlar. Bunu ümumilikdə aktyorlar üçün demişdi. Bəzi adamlar bunu səhv başa düşmüşdülər, elə bilmişdilər ki, atam öz həyatından, yaşayışından şikayət edir. Hər bir sahədə olan insan istəyər ki, öz sahəsində olan insanlar yaxşı dolansınlar. Atam orta yaşayıb, bacardığı qədər də hamıya kömək etməyə çalışıb. Onun adını kimin yanında çəksən hamının üzündə gülüş yaranacaq. Çünki o, həyatda da, sənətdə də düzgün insan olub".



# Tatevik xanım narahatdır: "Qorxuram ki, Bakıya qarşı..."

**"Ermənistanın hazırkı iqtidarı ölkədə Azərbaycanın beynəlxalq məhkəmələrdə məsuliyyətə cəlb edilməsi imkanlarının minimuma enməsi üçün hər şeyi edir".**

Musavat.com erməni mediasına istinadən xəbər verir ki, bunu erməni azərbaycanşünas alim Tatevik Ayrapetyan bildirib.

"Mənim ciddi narahatlığım var ki, Ermənistan Azərbaycanın bütün tələblərini yerinə yetirəcək və beynəlxalq məhkəmədə Bakıya qarşı iddialarını geri götürəcək", - deyə o, yerli "168 Zham" kanalına bildirib.

Onun sözlərinə görə, iddiaların geri götürülməsi Ermənistan üçün dönməz nəticələrə gətirib çıxaracaq, çünki belə olan halda Ermənistan sonradan mövcud materiallardan istifadə etmək imkanından məhrum qalacaq.

YENİ MÜSAVAT
N 125 (8498) 19 iyul 2024



# Özünü təcrid edən qəbilənin əhvalatı

Zamin HACI
zaminhaci@gmail.com

“Spartalılar düşmənlərinin nə qədər olduğunu yox, harada olduğunu soruşarlar” (Plutarx)

**Bir kəlbəcərli kişi özündən yaşca böyük sevgilisiylə Göygöl dağlarındakı meşəliyə çəkilib, intihar ediblər. Səbəb nədir, məlum deyil. Ola bilsin onların qovuşmasına, birgə yaşayışına mız qoyan çoxlu qahım-əqrəba varmış.**

İntihardan bir il sonra sevgililərin qalıqları meşədən, asılı vəziyyətdə tapılıb. Romeo və Cülyetta, Leyli və Məcnunun qulağı cingildəyir.

Bəlkə heç intihar etməyiblər, kimsə onları öldürüb asıb? Bütün hallarda dramatik sevgi faciəsidir, sənət əsərlərinə, kinolara mövzu olacaq hadisədir. Biz belə şeyləri qabaqlar yapon filmlərində-filanda görürdük.

Ancaq kinonu kim çəkəcək? Bizdə kino sənətinin tabutuna axırıncı mıxları da çalıblar. İndi nəinki kino çəkmək, kino göstərmək də senzura altındadır. Ona görə də sənətin müqəddəsi yeri boş qalmır, vətəndaşlar özləri öz həyatlarını kinoya çevirirlər.

O cümlədən, hindistanlı rejissorlar kütləvi şəkildə Azərbaycana axışıb burda kinolar çəkirlər. Ağ şəhər bulvarında, Laçın dağlarında... Mən özüm Şamaxı tərəflərdə hindistanlılara rast gəlmişəm. İki cavan mahnı oxuya-oxuya dağdan dığırlanırdı, axırda əl-ələ tutuşub otluğa uzandılar.

Prinsipcə, bizim üçün fərqi nədir kinonu kim çəkir? Əsas odur baxmağa nəsə olsun. Rasim Balayevin vaxtında da xalqımız daha çox Amitabh Baççanı, Mitxun Çakrobortini izləyirdi. 1986-cı ildə çəkilən “Bəyin oğurlanması” filmində “Avara” hind filmini 42 dəfə izləyən personaj havayı yerə yaranmamışdı.

Bir az vətənpərvərliyimizə ziyanı var, çünki Hindistan açıq-aşkar Ermənistanın dostudur.

Digər tərəfdən, Amazon çayı ətrafındakı meşələrdə özünü təcrid edən maço-piro qəbiləsinin fotoları yayılıbdır. Əslində bu qəbilənin öz adı nomole-dir, biz - istismarçı bəşəriyyət onlara maço-piro adı yapışdırmışıq. Nomole qəbiləsi meşədə ovçuluq, yığıcılıqda başını saxlayır, mobil telefondan, internetdən, tik-tokdan xəbərsizdir. Kim istəsə başqasını sevir, meşədən meşəyə gedib intihar edənlər, sonra telekanala canlı yayım açıb braziliyalı “Xoşqədəm” xanıma intervü verən valideynlərə rast gəlinmir.

Ümumiyyətlə, nomole qəbiləsi sivil dünyadan heç vaxt xeyir görməyib. 19-cu əsrdə Fiskaraldo adlı perulu bir burjuy, kauçuk baronu nomole qəbiləsindən xeyli adamı qırıbdır. Lakin Fiskaraldo Qərbdə qəhrəman kimi tanınır, ona bu donu ünlü rejissor Verner Hersoq “Fiskaraldo” adlı filmi ilə biçibdir. Həmin filmdə gəmini meşənin içində daşıyırdılar, Klaus Kinski də baş qəhrəmanı çox ustalıqla oynayırdı - yadımda qalan budur. Müstəmləkəçini qəhrəman kimi təsvir etmək, ideallaşdırmaq Verner müəllimin üzərində ləkədir.

Hazırda bəzi hesablamalara görə nomole qəbiləsi 750 nəfərdən çoxdur. Əgər meşədə qalmaq qərarının müddətini uzatsalar, başqa yerlərə yalnız su yolu ilə getsələr bu, qəbilə üçün faydalı olacaqdır. Üstəlik dünyada koronavirus hələ qurtarmayıb, dünən ABŞ prezidenti Bayden yenidən koronaya yoluxmuşdur.

Kəskin dönüş edərək Amazondan öz “zonumuza” qayıdaq. Bakıda başqa istiqamətlərə gedən, lakin eyni nömrəni (120 idi deyəsən) daşıyan avtobuslar varmış. Bu 120-lərdən bir hissəsi 28 maydan Hövsana, o biri isə Sədərək ticarət mərkəzindən Bibiheybətə gedirmiş. Camaat şikayətlənir, guya bundan narazı qalmışlar. Deyirlər səhv edirik, marşrutu qarışdırırıq.

Sanki böyük fərqi vardır. Vətənin hər yeri bizə əzizdir. Hövsana getmə, Bibiheybətə get. Mənim özümü neçə dəfə metrodan çıxanda tutub rayonlara aparıblar, qəti etiraz etməmişəm. Hövsanda sənə nə lazımdırsa, hamısı Bibiheybətdə də var, ASAN-xidmətə and olsun!

Yeri gəlmişkən, mənim dostum Vüsal bəy bu yaxında taksiyə minib, Ayna Sultanovanı sifariş edib, sonra telefona başı qarışıb, bir də çatanda görüb ki, Yasamal tərəfdə bir yerdədir. Sən demə, Bakıda Ayna xanımın həm küçəsi, həm heykəli vardır. Küçə Yasamalda, heykəl isə Binəqədi-Nərimanov sərhədindədir. Belə şəhər planlaşdıranlara eşq olsun!

Dostumuz da heç kefini pozmayıb, heykəlin yanında görəcəyi işi küçədə görüb, çıxıb gedib. Vətənpərvər oğlandır.

# Ermənistan üçün son şans ili - İrəvan “müharibə” konstitusiyasını maskalaya bilməyəcək!

## Sülh prosesinə “inanılmaz irəliləyiş o zaman olacaq ki...; təhlilçiyə görə, bölgədə davamlı sülhdə maraqlı olan iki əsas ölkə var

**2024-cü ilin yarıdan çoxu artıq arxada qalıb. Bu il Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanıb-imzalanmaması məsələsinə böyük ölçüdə aydınlıq gəlməlidir. Daha dəqiqi, rəsmi İrəvanın belə bir niyyətinin olub-olmadığı müəyyənləşəcək. Çünki böyük anlaşma yolunda əsas problem Ermənistan konstitusiyası ilə bağlıdır və bu problemi İrəvan daha gizlədə, maskalaya bilməyəcək.**

İki ölkə arasında sülh sazişi ilə bağlı ehtimallar isə hələ ki, ehtiyatlı xarakter daşıyır və daha çox istəkləri ifadə edir, nəinki reallıqdan doğan gözləntiləri. Hərgah optimistlər az deyil.

“Bu il Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanması perspektivləri, fikrimcə, kifayət qədər yüksəkdir”.

Bunu “Moskva-Bakı”ya müsahibəsində **Siyasi Araşdırmalar İnstitutunun direktoru Sergey Markov** deyib.

“Ermənistan Bakının şərtlərini qəbul etməyə hazırdır, iki ölkə arasında 12 km sərhədin demarkasiyası artıq həyata keçirilib, Ermənistan əvvəllər işğal etdiyi kəndləri Azərbaycana qaytarıb, ikitərəfli sülh prosesinin davam etdiyini deyə bilərik. O cümlədən Ermənistanın iradəsi ilə mən əminəm ki, hakimiyyət konstitusiyadan Azərbaycana qarşı bütün ərazi iddialarını çıxaracaq, Azərbaycan da bunu tələb edir”, - politoloq qeyd edib.

**Markov vurğulayıb ki, Zəngəzur dəhlizi ilə bağlı vəziyyətin necə inkişaf edəcəyi hələ də sual altındadır:** “Lakin Ermənistan hakimiyyəti həqiqətən də Azərbaycanla sülhə sadiqdir. Noyabrda Bakıda keçiriləcək BMT-nin iqlim konfransına qədər hər şey bu sazişin imzalanmasına doğru gedir. Ermənistan üçün Azərbaycanla sülh imzalasa, daha yaxşı olar, ölkə həyatında yeni səhifə açılar”.

Bundan bir gün öncə isə ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Miller bildirmişdi ki, “Azərbaycan və Ermənistan sülh danışıqlarında inanılmaz irəliləyiş əldə edib və uzun bir yol keçib”.

Doğrudanmı Bakı və İrəvan sülh danışıqlarında inanılmaz irəliləyiş əldə edib və bunun nəticəsi kimi, elə cari ildə sülh sazişi imzalana bilər? Görəsən, sülh müqaviləsində ən çox hansı dövlət maraqlıdır, onlardan hansı biri sülhə real töhfə vermək fikrindədir-ABŞ, yoxsa Rusiya? Bəs “daşları yığmaq” əvəzinə, hələ də qoltuğunda “daş gizlədən” Ermənistan?



**Politoloq Oqtay Qasımov “Yeni Müsavat”a bildirdi ki, həm Rusiyadan, həm ABŞ-dan Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması ilə bağlı müxtəlif açıqlamalar son vaxtlar intensivləşib:** “Bu açıqlamalar kifayət qədər optimist notdadır. Onlar ümid edirlər ki, ilin sonuna qədər Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi imzalana bilər. Təbii ki, bu optimizmi bölüşmək kifayət qədər çətindir. Azərbaycanın sülh sazişi ilə bağlı mövqeyi tamamən aydındır. Azərbaycan hələ üç il öncədən Ermənistana 5 baza prinsipi əsasında təkliflərini təqdim eləyib. O zamandan keçən müddətdə çoxsaylı görüşlər və müzakirələr olub. Bu prosesdə vasitəçilər qismində Rusiya, Avropa İttifaqı, ABŞ iştirak ediblər və bu müddət ərzində sülh müqaviləsinin hazırlanması ilə bağlı əhəmiyyətli bir yol qət edilib deyə bilərik.

Amma yekun sülh müqaviləsinə tərəflər bu gün hazırdırmı? Azərbaycan hazırdır. Ermənistanın hazır olub-olmadığı sualının cavabı isə kifayət qədər mürəkkəbdir. Ermənistanın hazır olduğunu söyləyə bilmərik. Bunun əsas səbəbi ondan ibarətdir ki, Ermənistana kənar təsirlər yetərincə güclüdür. Paşinyan hakimiyyətinin həm kənar, həm də daxili təzyiqlərə müqavimət gücü kifayət qədər deyil. Bu hakimiyyət əslində manipulyasiya etməklə prosesdə Ermənistanın xeyrinə müəyyən dəyişiklikləri etmək istəyir. Məhz bu səbəbə üç ildən artıqdır danışıqlar prosesi davam etməkdədir. Azərbaycanın sülh müqaviləsinin imzalanması və regionda dayanıqlı, davamlı sülhə nail olunması üçün şərtləri var. Ermənistan konstitusiyasında, qanunvericilik aktlarında Azərbaycana və Türkiyəyə qarşı ərazi iddiaları ləğv edilməlidir. Azərbaycan hesab edir ki, bu addım atılmadan bölgədə davamlı sülhə nail olmaq mümkün deyil".

**Politoloq qeyd etdi ki, Ermənistanda referendum keçirilməsi ilə bağlı müxtəlif açıqlamalar olsa da yaxın dövr üçün referendumun keçirilməsi və konstitusiya dəyişikliklərinin edilməsi real görünmür:** “Rəsmi İrəvan da bunda istəkli görünmür. Bu səbəbdən Azərbaycan tərəfi Ermənistana əslində prosesi daha rahat keçmək üçün təklif təqdim edib. Bu təklif ondan ibarətdir ki, Azərbaycan Ermənistana təklif edir ki, təqdim olunmuş baza prinsipləri əsasında razılaşma əldə edilsin və bu razılaşma çərçivə sənədi şəklində qəbul edilərək paraflansın və Ermənistan öz üzərinə öhdəlik götürsün ki, konstitusiya dəyişikliyinə, qanunvericilik aktlarında dəyişikliklərə gedəcək, bu müddət ərzində də hərtərəfli sülh müaviləsinin imzalanması üçün işlər davam etdirilisin, qeyd olunan dəyişikliklərdən sonra sülh müqaviləsi imzalansın”.

**O ki qaldı Rusiya və ABŞ-ın səmimi şəkildə Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanmasını istəməsinə, Oqtay Qasımov hesab edir ki, bunu birmənalı söyləmək çətindir:** “ABŞ-ın mövqeyi onunla bağlıdır ki, onlar noyabr ayında Amerikada keçiriləcək prezident seçkisinə qədər ən azı 4 illik Bayden administrasiyasının hakimiyyətdə olduğu dövrdə xarici siyasətdə əldə etdiyi hansısa uğuru təqdim etmək istəyirlər. Çünki Ukrayna-Rusiya müharibəsi, İsrail-HƏMAS savaşı ilə bağlı məsələlərdə ciddi irəliləyiş yoxdur. Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması, sülh sənədinin imzalanması belə vəziyyətdə Bayden administrasiyasının seçki kampaniyası dövründə istifadə edə biləcəyi piar təbliğatından biri ola bilər. Ona görə də hesab edirəm ki, ABŞ-ın son dövrdə fəallığı məhz bununla bağlıdır. Bölgədə davamlı sülhdə maraqlı olan iki əsas ölkə var. Bunlar Azərbaycan və Türkiyədir”.

❑ Etibar SEYİDAĞA,
“Yeni Müsavat”

# Azərbaycan düşməni yüksək vəzifədən gedir - Bakının gözləntisi

## Rusiyanı qəzəbləndirən Kallasın Aİ-də post tutması hansı perspektivlər vəd edir? Ermənilər üçün “yas quran” Borreli əvəzləyən eston xanımla bağlı ekspert rəyləri

**Estoniyanın baş naziri Kaya Kallas və ölkə hökumətinin istefası barədə artıq xəbərlər yayılıb. Bu barədə yerli KİV-in yaydığı məlumatda deyilir ki, o, hökumətin iyulun 15-də keçirilən növbədənkənar iclasından sonra istefa ərizəsini prezident Alar Karisə təqdim edib.**

Kaya Kallas Jozep Borrelin yerinə Aİ diplomatiyasına (Avropa İttifaqının xarici işlər naziri postu - red.) rəhbərlik edəcək. Bu, az öncə Avropa Parlamentinə keçirilən seçkilərdən sonra mümkün olub.

Qeyd edək ki, K.Kallasın adı vaxtaşırı müxtəlif rezonans doğuran hadisələrdə hallanmışdı. Onun Ukraynaya səfəri, Qərbi Rusiyanı durdurmaq üçün hərəkətə keçməyə çağırması, Buça və Borodiankada olması, Rusiya qoşunları tərəfindən güllələnmiş Taras Şevçenkonun abidəsini ziyarəti, Buçada kütləvi məzarlıqlar yerinə baş çəkməsi də Rusiyada qəzəb doğurmuşdu.

Hətta Estoniyanın baş prokuroru Andres Parmas demişdi ki, Rusiya Daxili İşlər Nazirliyi tərəfindən axtarışa verilmiş Estoniyanın baş naziri Kaya Kallas hansısa dövlət tərəfindən Rusiyaya ekstradisiya oluna bilər. Onun sözlərinə görə, bu, bir siyasətçi üçün əsas risklərdən biridir. “Əgər hər hansı ölkə öz öhdəliklərindən imtina etmək qərarına gəlsə və məsələn, Rusiya ilə bağlanmış ekstradisiya müqaviləsinə istinad etsə, o zaman bizə ancaq qanuna etiraz etmək qalacaq”, - deyə Parmas bildirmişdi.

Prokurorun sözlərinə görə, Kaya Kallas beynəlxalq diplomatik hüquqla qorunmalıdır, lakin Tallin üçüncü ölkələrdən belə müdafiəni tələb edə və ya gözləyə bilməz. Parmas əlavə edib ki, Kallas vəzifəsini tərk edərsə və qeyri-siyasi fiqur kimi səyahət edərsə, risk artacaq.

Xatırladaq ki, Estoniyanın baş naziri Kaya Kallas və dövlət katibi Taymar Peterkop Rusiya Daxili İşlər Nazirliyi tərəfindən cinayət işi üzrə axtarışa verilib. Bu səbəbdən Rusiyanın müvəqqəti işlər vəkili Estoniya Xarici İşlər Nazirliyinə çağırılıb və ondan yazılı izahat tələb olunmuşdu. İndi onun Avropa İttifaqının xarici işlər naziri postuna gəlməsi şübhəsiz ki, Kreml üçün əlavə başağrısıdır.

Lakin bu xanım Azərbaycanın düşmənini əvəzləyib. Məlumdur ki, Borrel Azərbaycana münasibətdə neqativ, hətta düşmən mövqeyi ilə seçilib. Daim erməni separatizminə dəstək verib, Bakıda saxlanılan separatçı-quldurların müdafiəsinə qalxıb. Hətta ermənidən çox erməni olmağa çalışıb. Məsələn, bir ara Qarabağdan könüllü gedən erməni əhalinin sayını şişirdərək, 150 min göstərmişdi...


Jozep Borrel


Kaya Kallas

Bəs onun xanım xələfi Kaya müsbət mənada fərqlənə biləcəkmi? Azərbaycana münasibətin yaxşıya dəyişməsi gözləniləndimi?

Ekspertlərimizin mövzu ilə bağlı fərqli yanaşmaları var.

“Estoniyanın baş naziri Kaya Kallasın əlindən Avropa İttifaqının bütün tərəfdaşları ilə münasibətlərini korlamaqdan başqa bir iş gəlməyən qəzəbli qoca Josep Borreli əvəzləməsi ilk növbədə Aİ-nin özü üçün faydalıdır”.

**Siyasi şərhçi, Ədalət, Hüquq, Demokratiya Partiyasının sədr müavini Elçin Mirzəbəyli** bunu “Yeni Müsavat”a açıqlamasında söylədi.

Analitik şübhə etmir ki, Kallas Aİ-nin xarici siyasət kursunu ittifaq ölkələrinin xarici işlər nazirlərindən ibarət Avropa İttifaqı Şurasının müəyyənləşdirdiyi istiqamətdə həyata keçirəcək: “Bu məsələdə onun sələfindən, xüsusilə də Rusiyaya münasibətdə tamamilə fərqli bir siyasət yürüdəcəyini gözləmək doğru olmazdı. Amma xanım Kallasın Aİ ilə normal işgüzar, qarşılıqlı faydalı əməkdaşlıq ölkələrə münasibətdə Borrel kimi uğursuz bir istiqamət seçəcəyini gözləmirəm. Qənaətimə görə, yaxın 5 ildə biz Aİ-nin xarici siyasətində daha dəqiq, emosiyadan uzaq, praqmatik əsaslı yanaşmaların ön plana çıxacağını görəcəyik... Azərbaycanla əlaqələrdə işgüzar münasibətlərin ön plana çıxacağını, daha çox enerji təhlükəsizliyi və nəqliyyat dəhlizləri istiqamətlərini əhatə edəcəyini gözləyirəm”.

**E.Mirzəbəyli qeyd etdi ki, qarşıdakı dönəmdə Azərbaycana və Ermənistana münasibətdə müəyyən qədər balanslı siyasət yürüdülə bilər**: “Ən azı ritorikada tərəflərdən hər hansı birinə xüsusi üstünlük veriləcəyini və yaxud sərt ifadələrdən istifadə olunacağını gözləmirəm”.

**Azad Vətən Partiyasının sədri Akif Nağı Avropa Birliyinin Azərbaycana münasibətinin dəyişəcəyini inandırıcı saymır:** “Orada hansısa vəzifədə kimin oturacağının fərqi yoxdur. Xanım Kallasın görəvə gəlməsi heç nəyi dəyişməyəcək. Bir tərəfdən, Aİ-ni region aparıcı dövlətləri idarə edir, təlimatlar isə Vaşinqtondan gəlir. Estoniya kimi balaca bir dövlətin nümayəndəsinin sərbəst siyasət yürüdəcəyi mümkün deyil. Ona nə desələr, onu da yerinə yetirəcək. Digər tərəfdən, Estoniya Azərbaycana isti münasibəti ilə seçilməyib, əksinə, imkan düşdükcə ziyan verməyə çalışıb.

Bugünlərdə Estoniyanın keçmiş xarici işlər naziri Marina Kaljurandın mətbuat üçün açıqlaması oldu. Məlum oldu ki, bu xanım son beş ildə Avropa Parlamentinin Cənubi Qafqaz üzrə nümayəndə heyətinin rəhbəri olub, Azərbaycana qarşı qərəzli sənədlərin hazırlanmasına rəhbərlik edib. Görəvdən getməsi ilə bağlı açıqlamasında yenidən sırf ermənipərəst olduğunu göstərib".

**A.Nağı hesab edir ki, yeni gələn xanımın da mövqeyi fərqli olmayacaq:** "Bu balaca dövlətlər var gücləri ilə avropalı olduqlarını göstərməyə çalışırlar, bunun üçün isə əsas vasitələrdən biri Azərbaycan və Türkiyəyə hücumdur. Bu məsələdə nə qədər aqressiv olsalar, o qədər avrointeqrasiyada irəli getdiklərini göstərmiş olurlar. Qorxuram bu xanımın əməllərini gördükcə, Borrelə şükür etməli olaq. Hər halda, hansısa estoniyalının bizi "danlaması"na imkan verməməliyik. Bunu təhqir mənasında başa düşməsinlər. Amma balaca estoniyalı evində oturub, öz problemləri ilə məşğul olsa, daha yaxşı olar".

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu bu qənaətdədir ki, Avropa Parlamentinə keçirilən seçkilərdən sonra Avropa İttifaqının strukturlarında yerdəyişmələr baş verib, bəziləri vəzifəsində qalıb, digərləri yerlərini başqalarına təhvil verib:** “Avropa İttifaqının xarici siyasət məsələləri üzrə komissarı Jozep Borrel İkinci Qarabağ müharibəsi və ondan sonrakı dövrdə Azərbaycan əleyhinə açıqlamaları ilə yadda qalıb, erməni separatizminə simpatiyasını gizlətməyib. Maraqlıdır ki, Avropa İttifaqı rəhbərliyində təmsil olunanlar Şarl Mişel və Ursula Fon der Lyayen Azərbaycanla Ermənistan arasında balansı qoruyarkən, onlara tabe olan Borrel Ermənistanın tərəfini tutub. Borrelin yerinə keçən Estoniyanın baş naziri Kaya Kallasın fərqli siyasət yürüdəcəyinə ümid etmək istərdik. Doğrudur, Baltik ölkələrindən Litva ilə Estoniyanın Cənubi Qafqaza baxışlarında da müəyyən suallar mövcud olub. Misal üçün, Latviya daha balanslı mövqedən çıxış edib. Buna baxmayaraq, Kaya Kallasın, hər halda, Borrel qədər Ermənistanın xeyrinə balansı pozmayacağına ümid var”.

**E.Şahinoğlu rəsmi Bakının mesajını faydalı sayır:** “Bakının Brüsselə mesajı o olmalıdır ki, Avropa İttifaqının rəhbərliyi bölgə ölkələri arasında balansı qorumağa çalışarkən, Azərbaycanın bölgədə oynadığı rolu qiymətləndirərkən, eyni mövqenin onlara tabe olan komissarların da göstərməsi vacibdir.

Bu arada Avropa İttifaqının Siyasi və Təhlükəsizlik Komitəsi Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan üzrə yeni xüsusi nümayəndəsi vəzifəsinə Maqdalena Qrononun namizədliyini təsdiqləməsi də diqqəti cəlb edir. O, bu vəzifədə Toivo Klaarı əvəz edəcək. Maqdalena Qrono Çexiyadandır. Maqdalena Qrono Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin baş müşaviri vəzifəsində çalışıb. Toivo Klaar Şarl Mişelin tapşırıqlarını yerinə yetirir, Bakı ilə İrəvana səfərləri sırasında Brüsselin təkliflərini çatdırırdı. Onun açıqlamaları bəzən ziddiyyətli olurdu".

**Politoloqun sözlərinə görə, ədalət naminə demək lazımdır ki, Şarl Mişel Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanması üçün çox çalışdı, ancaq onun planlarını Fransa prezidenti Emmanuel Makron pozdu:** “Makron "mən də masada oturmalıyam" deməsəydi, Şarl Mişelin Bakı ilə İrəvan arasında moderatorluğu davam edəcəkdi. Rəsmi Bakı Makronun iştirakı ilə Brüsselin moderatorluğunu qəbul etmədi. Bununla Brüssel Berlinin və Vaşinqtonun arxasında qaldı, indi əsas moderatorlar bu iki dövlətdir. Odur ki, Fransa masadan çəkilmədiyi müddətdə Maqdalena Qrononun Bakı və İrəvana səfərləri nəticə verməyəcək".

İstənilən halda gözləyək. Hər halda, Azərbaycanla münasibətlərdə gərginlik yaratmağa çalışan, diktə mövqeyindən çıxış edən diplomatların sonunu görmüşük...

❑ **E.PAŞASOY,**
**“Yeni Müsavat”**

Yeni MÜSAVAT
N 125 (8498) 19 iyul 2024

# Azərbaycanın 6 aylıq alış-verişi: ixrac azalır, idxal artır...

**2024-cü ilin yanvar-iyun aylarında Azərbaycanın xarici ticarət dövriyyəsi 21 milyard 768 milyon dollara bərabər olub. "Yeni Müsavat" Dövlət Gömrük Komitəsinin statistikasına istinadən xəbər verir ki, xarici ticarət dövriyyəsi ötən ilin müvafiq dövrü ilə müqayisədə 16,8 faiz azalıb. Bu azalma bilavasitə ixrac həcmlərinin düşməsindən qaynaqlanır.**

Belə ki, son bir ildə ölkə üzrə ixrac 28 faiz azalaraq 12 milyard 900 milyon ABŞ dolları təşkil edib. İdxal isə ötən ilin ilk yarısı ilə müqayisədə 8,5 faiz artmaqla 8 milyard 867 milyon ABŞ dollarına bərabər olub.

İxracın idxalı üstələməsi nəticəsində bu ilin birinci yarısında xarici ticarət dövriyyəsində 4 milyard 34 milyon dollarlıq müsbət saldo yaranıb. Bu isə 2023-ci ilin yanvar-iyun ayları ilə müqayisədə 2,4 dəfə azdır.

Altı ayda ixracdakı azalmanın əsasında isə neft-qaz sektorundan ixracın azalması dayanır. Belə ki, hesabat dövründə ölkədən 11 milyard 305 milyon dollarlıq neft-qaz sektoru məhsulu ixrac olunub. Bu, ötən ilin eyni dövrünə nəzərən 30 faiz azalma deməkdir: həmin dövrdə neft-qaz ixracımız 16 milyard 195 milyon dollar olub.

Neft-qaz sektoru üzrə ixracdan əldə olunan gəlirlərdən ən böyük azalma qaz ixracında qeydə alınıb. Belə ki, cari ilin ilk yarısında Azərbaycan xaricə 11 milyard 826 milyon kubmetr qaz ixrac olunub, 4 milyard 69 milyon dollar əldə olunub. Bu, illik ifadədə həcm baxımından 8 faiz artım, dəyər baxımından isə 49,2 faiz azalma deməkdir.

Xam neft ixracında illik azalma həcm ifadəsində 1.7 milyon tondan yuxarıdır. Bu ixracdan əldə olunan gəlirdə isə 800 milyon dollara yaxın azalma var. Cari ilin yanvar-iyun aylarında Azərbaycandan ən çox nefti İtaliya alıb - 4 273 815.04 min ABŞ dolları dəyərində 4 273 815.04 ton . Bu dövrdə Azərbaycanın ümumi neft ixracında ikinci yerdə İsrail qərarlaşıb. Hesabat dövründə bu ölkəyə 989 074.03 min dollar dəyərində 1 583 289.20 ton neft ixrac edilib.




Azərbaycanın neft ixracı üzrə siyahıda üçüncü yeri Hindistan tutur. Cari ilin yanvar-mart aylarında bu ölkəyə 567 774.74 min dollar dəyərində 891 896.27 ton neft ixrac edilib. Ümumilikdə bu ilin altı ayında Azərbaycan neftinin 20 ölkədən alıcısı olub.

Hesabat dövründə Azərbaycanın qeyri-neft ixracı 1 milyard 596 milyon dollar təşkil edib. Bu, illik ifadədə 10 faiz azalma deməkdir: ötən ilin eyni dövründə qeyri-neft ixracımız 1 milyard 773 milyon dollara bərabər olmuşdu. Bu azalmada əsas pay elektrik enerjisinə məxsusdur: ötən ilin birinci yarısında enerji ixracımız 2,8 milyard kVt/saatdan çox olmaqla 314 milyon dollardan yuxarı gəlir gətirmişdi. Bu ilin eyni dövründə xaricə cəmi 925 milyon kVt/saat enerji sataraq cəmi 51 milyon dollar gəlir əldə etmişik.

Altı ayda qeyri-neft ixracımızın 335 milyon dollarını meyvə-tərəvəz təşkil edib. Ötən ilin eyni dövründə xaricə 350 milyon dollarlıq meyvə-tərəvəz satıldığını nəzərə alsaq, bu sahədə 15 milyon dollar, yaxud 4,3 faiz azalma olduğunu görərik. Burada əsas azalma kartof ixracında qeydə alınıb. Əgər ötən ilin birinci yarısından 71 min ton kartof ixracından 31 milyon dollar gəlir əldə olunmuşdusa, bu il ixrac 48,2 min tona, gəlir isə 20,5 milyon dollara qədər azalıb.

İxracında azalma olan digər məhsul meşə fındığıdır. 2024-cü ilin yanvar-iyun ayında Azərbaycandan 51 milyon 900 min dollar dəyərində 8 min 425 ton fındıq ixrac olunub. Fındıq ixracı ötən ilin eyni dövrü ilə müqayisədə dəyər ifadəsində 8 milyon 719 min dollar və ya 14 faiz, miqdar ifadəsində isə 3 min 804 ton və ya 31 faiz azalıb. Xatırladaq ki, 2023-cü ilin ilk 6 ayında Azərbaycandan 60 milyon 619 min dollar dəyərində 12 min 229 ton fındıq ixrac olunmuşdu.

Bu ilin ötən dövründə Azərbaycanın ixrac etdiyi fındığın 1 tonunun orta ixrac qiyməti 6160,2 dollar olub. Xatırladaq ki, 2023-cü ilin eyni dövründə bu rəqəm 4957 dollar idi. Bu da illik müqayisədə fındığın 1 tonunun qiymətində 24,3 faiz artım olması deməkdir.

Cari ilin ötən dövründə bir sıra məhsulların ixracında artım olub. Belə ki, hesabat dövründə 136 milyon 950 min dollar dəyərində 114 247 ton pomidor ixrac olunub. Bu isə o deməkdir ki, pomidor ixracı ötən ilin eyni dövrü ilə müqayisədə dəyər ifadəsində 13.4 faiz, miqdar ifadəsində 6 faiz artıb.

2023-cü ilin ilk 6 ayında Azərbaycandan 120 milyon 730 min dollar dəyərində 108 118 ton pomidor ixrac olunmuşdu.

Hesabat dövründə ixracında artım olan daha bir məhsul xurmadır: 28 milyon dəyərində 35,4 min ton. Ötən ilin eyni dövründə xurma ixracı 14,8 milyon dollar dəyərlə 20,3 min ton təşkil etmişdi. Bu isə o deməkdir ki, xurma ixracı həcm baxımından 74,4 faiz, dəyər baxımından isə 89,2 faiz artıb.

İdxala gəlincə, maraqlı mənzərə avtomobil idxalında müşahidə olunur: ümumi idxalda azalma olsa da, hibrid və elektromobil idxalında artım var. Bu ilin yanvar-iyun aylarında xaricdən Azərbaycana ümumilikdə 779 milyon 364 min dollar dəyərində 42 min 335 ədəd avtomobil gətirilib. Dövlət Gömrük Komitəsinin yaydığı məlumata əsasən, 2023-cü ilin yanvar-iyun ayları ilə müqayisədə ölkəyə idxal olunan avtomobillərin sayı 6 min 38 ədəd və ya 13 faiz azalıb, dəyəri baxımından 26 milyon 60 min dollar və ya 4 faiz artıb. Xatırladaq ki, 2023-cü ilin müvafiq dövründə Azərbaycana 753 milyon 305 min dollar dəyərində 48 min 373 ədəd avtomobil idxal edilmişdi. Bu ilin altı ayında 1 ədəd avtomobilin idxal qiyməti 18 min 410 dollar (31 min 296 manat), ötən ilin eyni dövründə isə 15 min 573 dollar (26 min 474 manat) olub. İdxal qiyməti son bir il ərzində 2 min 837 dollar (4 min 822 manat), yəni 20 faiz artıb. Bu artım Azərbaycana 10 ildən artıq yaşı olan avtomobillərin idxalının qadağan olunması ilə bağlıdır. 10 ildən az yaşı olan avtomobillər ondan yaşlılarla müqayisədə daha baha başa gəlir.

Hesabat dövründə idxal olunan avtomobillərin 6 milyon 400 min dollar dəyərində 103 ədədi sürücü daxil olmaqla 10 nəfər və ya daha çox adam daşımaq üçün nəzərdə tutulmuş mühərrikli nəqliyyat vasitələri, 683 milyon 191 min dollar dəyərində 38 min 8 ədədi minik avtomobilləri, 266 milyon 126 min dollar dəyərində 8 min 959 ədədi hibrid, 62 milyon 214 min dollar dəyərində 1 505 ədədi elektromobillər, 68 milyon 337 min dollar dəyərində 4 min 3 ədədi yük, 21 milyon 436 min dollar dəyərində 221 ədədi isə xüsusi təyinatlı avtomobillər olub.

Gömrük statistikasına əsasən, cari ilin yanvar-iyun aylarında Azərbaycana 266 milyon 126 min dollar dəyərində 8 959 ədəd hibrid avtomobil idxal olunub. 2023-cü ilin eyni dövrü ilə müqayisədə hibrid avtomobillərin idxalı dəyər ifadəsi ilə 106 milyon 544 min dollar və ya 66,8 faiz, miqdar ifadəsi ilə 1 630 ədəd və ya 22,2 faiz artıb. Beləliklə, 1 ədəd hibrid avtomobiln orta idxal qiyməti 2024-cü ilin altı ayında orta hesabla 29 min 705 dollar (50 min 498 manat) olub ki, bu da son bir ildə 7 min 931 dollar (13 min 482 manat) və ya 36,4 faiz bahalaşma deməkdir. 2023-cü ilin yanvar-iyun aylarında isə 1 ədəd hibrid avtomobilinin orta ixrac qiyməti 21 min 774 dollar (37 min 16 manat) olub.

Yeri gəlmişkən, Azərbaycan hökuməti elektrik mühərriklə hərəkətə gətirilən avtobusların idxalını 15 faiz gömrük rüsumundan azad edib. Nazirlər Kabineti bununla bağlı "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edib.

Bu qərar dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir və 2025-ci il yanvarın 1-dək qüvvədədir.

Qeyd edək ki, hazırda məxsusi olaraq hava limanlarında istifadə üçün elektrik mühərriklə hərəkətə gətirilən avtobuslar idxal gömrük rüsumundan azaddır.

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

# Palma yağından hazırlanan qidalar zərərlidir?



**Azərbaycanda zərərli palma yağlarının istifadəsi artıb. Belə ki, 2023-cü ilin ilk 6 ayında ölkəyə 5 min ton palma yağı gətirildiyi halda, 2024-cü ilin ilk 6 ayında Azərbaycana 11800 ton palma yağı gətirilib.**

Mövzu ilə bağlı Qida təhlükəsizliyi Hərəkatının rəhbəri, qida mütəxəssisi Məshəti Hüseynova BAKU.WS-ə açıqlama verib. Mütəxəssis bildirib ki, hazırkı dövrdə qida çeşidliliyi hər zaman sağlam sayılmır: "Bu həm də qidanın ucuz xammaldan hazırlanmasından xəbər verir. Qidanın rəf ömrünün uzun olması müəyyən qatqıların olmasından xəbər verir. Belə olan halda palma yağının istifadəsi də artır, çünki qidanın ömrünü uzadır. Eyni zamanda qidada palma yağından istifadə daha ucuz başa gəlir. Bəzi ölkələrdə palma yağından istifadə olunsa da, bəzilərində qadağan olunub. Ən əsası da uşaq qidalarında bu yağlardan istifadə olunmur. Hazırda bir çox paketlənmiş qidalarda, restoranlarda verilən yeməklərdə, şirniyyatlarda palma yağlarından daha çox istifadə olunur. Bəzən bunlar göstərilmir, bitki yağı adı altında insanlara təklif olunur. Palma iki üsuldan hazırlanır. Həm sənaye üsulu, həm də bitkinin meyvəsindən alınan yağla. Əgər təbii haldadırsa, tərkibində A, E vitaminləri, doymamış qida turşuları varsa, az miqdarda, gec-gec istifadə etmək olar. Ancaq mütəmadi istifadədə immun sisteminin fəaliyyətini zəiflədir, bir çox xəstəliklərə cığır açır".

# Həbsdəki "mahmudovçu" generala qarşı yeni iddia - yarım milyonluq tələb

**"Elite Travel" MMC-nin təsisçisi Xalıq Faiz oğlu Sadıxov Milli Təhlükəsizlik Nazirliyinin (MTN 2015-ci ildə ləğv olunub - E.M.) Antiterror Mərkəzinin sabiq rəisi, general-mayor Elçin Quliyev və həmin mərkəzin əməkdaşı, polkovnik Azər Mehdiyevə qarşı iddia qaldırıb. İqtisadiyyat.az yazır ki, Nəsimi Rayon Məhkəməsinə müraciət edən iş adamı vaxtilə ATM əməkdaşları tərəfindən ona vurulmuş maddi və mənəvi ziyanın ödənilməsini tələb edir.**



Musavat.com xəbər verir ki, Xalıq Sadıxov Elçin Quliyevlə Azər Mehdiyevin cinayət işi üzrə zərərçəkmiş şəxslərdən olub. Bakı Hərbi Məhkəməsində zərərçəkmiş qismində ifadə verərkən bildirib ki, MTN əməkdaşları tərəfindən 2010-cu ildə saxlanılıb: "Məni MTN-ə gətirdilər. Orada Ayaz Gərayzadə dindirdi və bildirdi ki, 100 min manat verməlisən. Məni saxta viza verməkdə ittiham ediblər. Sonra şirkətin lisenziyasının ləğv edilməsi ilə hədələdilər və hər ay pul verməyimi tələb etdilər".

**Zərərçəkmişin sözlərinə görə, ikinci dəfə MTN-ə 2013-cü ildə aparılıb. Onun ifadəsinə görə, ikinci dəfə də hədə-qorxulara məruz qalıb:** "Ayaz Garayzadə, Nail Tağızadə və digərləri şirkətimizdən öz adlarına, ailə üzvlərinin adlarına turpaketlər götürürdülər. Elə hərəkət edirdilər ki, elə bil, şirkət onlarındır".

Xalıq Saxıdovun iddiası hakim Nail Abbasovun icraatına verilib. Xalıq Sadıxov Elçin Quliyevlə Azər Mehdiyevdən müştərək qaydada tutulmaqla ona vurulmuş maddi və mənəvi ziyanın qarşılığı olaraq 500 min manat ödənilməsini tələb edir.

Qeyd edək ki, 2016-cı ildə Xalıq Sadıxov sahibi olduğu "Elite Travel" MMC-nin vəzifəli şəxslərinin qanunsuz hərəkətləri ilə bağlı Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində cinayət işi başlanıb.

İstintaq zamanı cəmiyyətin təsisçisi Xalıq Sadıxov, direktoru Fariz Sadıxov və baş mühasibi Sevda Nuriyevanın xidməti vəzifələrinin icrası ilə əlaqədar qulluq mövqeyindən istifadə etməklə "Azər-Türk Bank" ASC ilə bağlanmış kredit müqaviləsi əsasında bankdan götürülmüş 575 min manat məbləğində pul vəsaitinin 320 min manatını qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alınmadan və xüsusi razılıq tələb edildiyi halda belə razılıq olmadan "Elite Travel" MMC-nin adından bank kimi qanunsuz fəaliyyət göstərərək kredit şəklində ayrı-ayrı şəxslərə veriblər. Eyni zamanda həmin şəxslərdən əsas və faiz borcunun ödənişi adı ilə qəbul etdikləri 109 min 810 manat məbləğində pulu etibardan sui-istifadə etmə və aldatma yolu ilə ələ keçirmələrində, habelə Bakı şəhər sakininin qeyri-yaşayış sahəsini "Azər-Türk Bank" ASC-də ipoteka ilə yüklü edərək mülkiyyət hüquqları ilə bağlı vətəndaşın mənafeyinə mühüm zərər vurmalarında şübhəli biliniblər.

Ona görə də Xaliq Sadıxov və Fariz Sadıxova Cinayət Məcəlləsinin 178.3.2 (külli miqdarda ziyan vurmaqla dələduzluq), 192.2.1 (qanunsuz sahibkarlıq), 308.2 (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı), Sevda Nuriyevaya isə 32.5, 178.3.2, 192.2.1, 308.2 və 313-cü maddələri ilə ittiham elan edilib. Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Xalıq Sadıxov və Fariz Sadıxovun hər biri 12 il, şirkətin mühasibi Sevda Nuriyeva isə 3 il müddətinə azadlıqdan məhrum edilib. Bakı Apelyasiya Məhkəməsi isə Xalıq və Fariz Sadıxovların cəzasını 9 ilə endirib.

Yada salaq ki, Bakı Hərbi Məhkəməsinin hökmü ilə Elçin Quliyev 10 il 6 ay, Azər Mehdiyev isə 8 il azadlıqdan məhrum edilib. 2023-cü ilin mayında Azər Mehdiyev əfv edilib. Elçin Quliyev isə hazırda həbsdədir.

❑ E.MƏMMƏDƏLİYEV,
"Yenì Müsavat"

# Ali Məhkəmə həbsdə ölən başçının qardaşına 600 minlik əmlakı vermədi

**Ali Məhkəmədə Ağstafanın sabiq icra başçısı, həbsdə vəfat edən Nizaməddin Quliyevin müsadirə edilmiş əmlaklarının geri qaytarılması barədə qardaşının verdiyi şikayətə baxılıb.**

Musavat.com xəbər verir ki, Nizaməddin Quliyevin hüquqi varisi olan qardaşı 600 min manatlıq əmlakın müsadirədən azad edilməsini istəyirdi. Məhkəmə onun şikayətini əsaslı hesab etməyib. Qərara əsasən üzərinə həbs qoyulmuş əmlakların dövlət nəfinə müsadirəsinə dair qərar qüvvədə saxlanılıb.


Nizaməddin Quliyev

**Mərhum Nizaməddin Quliyevin dövlət nəfinə alınmış əmlaklarının siyahısını təqdim edirik:**

Goranboy rayonu, Heydər Əliyev prospekti 106 ünvanında yerləşən orta bazar dəyəri 330 395 manat olan qeyri-yaşayış binası;

Goranboy şəhəri, Heydər Əliyev prospekti 2 ünvanında yerləşən orta bazar dəyəri 143 min manat olan qeyri-yaşayış binası;

Goranboy şəhəri, V. Bayramov küçəsində yerləşən orta bazar dəyəri 121 min manat olan daha bir qeyri-yaşayış binası.

Goranboy rayonu, Aşağı Ağcakənd kəndində bazar dəyəri 20 800 manat olan torpaq sahəsi;

Qeyd edək ki, Nizaməddin Quliyev 2019-cu ildə Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən həbs edilib. Külli miqdarda mənimsəmə, rüşvət alma kimi cinayətlərdə təqsirli bilinən sabiq icra başçısı Gəncə Ağır Cinayətlər Məhkəməsinin hökmü il 8 il 6 ay azadlıqdan məhrum edilib. Hökmə əsasən üzərinə həbs qoyulmuş əmlaklar müsadirə edilib. Quliyevin vəfatından sonra Gəncə Apelyasiya Məhkəməsi əmlaklarını müsadirədən azad edib. Sonradan prokurorun protesti əsasında Ali Məhkəmədə qərarın "əmlakların müsadirədən azad edilməsi" hissəsi ləğv edilib. Gəncə Apelyasiya Məhkəməsi təkrar baxışda əmlakların yenidən müsadirəsinə qərar verib.

Yada salaq ki, Nizaməddin Quliyev 2021-ci ildə həbsdə ikən koronavirus infeksiyasına yoluxub və dünyasını dəyişib.

❑ E.MƏMMƏDƏLİYEV,
"Yenì Musavat"



# "Qəbul imtahanları sadələşdirilməlidir"

## Kamran Əsədov: "Təhsilin keyfiyyəti müəllimlərin əmək haqqına bağlı deyil, amma..."

**Orta məktəblərimizdə təhsilin keyfiyyəti aktual olaraq qalır. Səbəblər sırasında çox vaxt pedaqoqların az maaş alması göstərilir. Məktəbdənkənar repetitorluq fəaliyyəti də ilk növbədə bu amillə əlaqələndirilir.**

"Müəllimin maaşının yüksək olması yerində edilən bir tələbdir. Ancaq əmin deyiləm ki, maaş 2 dəfə artsa, təhsilin keyfiyyətinə bir o qədər təsir edəcək. Elə sahələr olub ki, maaşların bir neçə dəfə artmasına baxmayaraq, nəticə elə həmənki olub".

Bu sözləri sabiq təhsil naziri Misir Mərdanov "Demədi Demə" Yutub kanalının "Qara-qırmızı" layihəsində qonaq olarkən deyib.

Keçmiş nazir haqlıdırmı? Təhsil ekspertləri bu xüsusda nə düşünür, nə təklif edirlər?

**Mövzu ilə bağlı təhsil eksperti Kamran Əsədov "Yeni Müsavat"a danışıb:**

"Hazırda ölkəmizdə 4432 orta təhsil məktəbi var və bu təhsil müəssisələrində 1,6 milyon şagird təhsil alır, onların tədrisinin təşkili ilə isə 150 min nəfərə yaxın müəllim çalışır. Etiraf edək ki, təhsilin keyfiyyətinə müxtəlif amillər təsir göstərir. Təhsil əsasən 3 komponentdən ibarətdir- təhsil alan, təhsil verən və məkan. Bunun ardınca isə təbii ki, resurslar, təhsil verənlərin bilik və bacarıqlarının keyfiyyəti gəlir.

Birmənalı şəkildə deyə bilmərik ki, məktəblərdə təhsilin keyfiyyəti müəllimlərin əmək haqqına bağlıdır. Bu, qətiyyən belə deyil. 2022, 2024-cü ildə keçirilən sertifikasiya imtahanlarının nəticələrinə baxanda görürük ki, zəif nəticə nümayiş etdirən müəllimlərə 3 min manat maaş da verilsəydi, onlar öz üzərlərində işləməzdilər. Əlbəttə ki, maaş əsas təsir göstərici amillərdən biridir, amma məhz həmin müəllimlər, hansı ki, az balla müəllimlik ixtisasına daxil olublar, sonda yüksək ixtisaslı mütəxəssisə çevrilmədən əmək bazarına daxil olublar".

**Kamran Əsədova görə, ölkədə repetitorluğun geniş yayılması da müəllimlərin əmək maaşları ilə əlaqəli deyil:** "Səbəb ağır, çətin imtahanlarla bağlıdır. Yəni dünyanın heç bir ölkəsində belə bir imtahan modeli yoxdur ki, siz 5-6 il əvvəl oxuduğunuz, öyrəndiyiniz fənlərdən, mövzulardan imtahan verəsiniz. Təbii ki, 5-6-cı siniflərdə keçirilən informasiyalar əksər hallarda unudulur. Beləliklə, bu gün ölkədə repetitorların sayı ona görə çoxdur ki, ölkədə qəbul imtahanları çox çətindir.

Qəbul imtahanları sadələşdirilməlidir. Bu gün sertifikasiyadan keçən kifayət qədər müəllim var ki, əmək haqqı 1000 manatdan çoxdur. Hətta ayda 2000 manatdan çox əmək haqqı alan müəllimlər var. Direktorların əmək haqqı kifayət qədər artıb. Hazırda şagird sayı 500-dən çox olan direktorlara əlavə pul ödənilir. Və yaxud şagird sayı 2500-dən çox olan məktəblərin direktorlarının aylıq maaşı 3000 manatdan çoxdur. Bütün bunların hamısı son 3 il ərzində təhsil sistemində maliyyələşmənin çox böyük sürətlə dəyişdiyini göstərir.

Müəlliminin maaşının yüksək olması keyfiyyətə təsir göstərir, amma müəllimin bilik və bacarıqları müasir dövrün tələblərinə cavab vermədikdə, bu maaş onlara heç cür təsir göstərməyəcək. Beləliklə, bir daha qeyd edirəm ki, təhsilin keyfiyyəti məsələsini müəllimin maaşına bağlamaq doğru deyil. Biz sertifikasiya imtahanlarında yüksək nəticə göstərən müəllimlərin maaşının artırılmasında maraqlı olmalıyıq ki, onlar üçün bu motivasiya olsun, rəqabət mühiti yaratsın".

**Kamran Əsədov müəllimlərin maaşlarının artırılmasına ehtiyac olduğunu vurğulayıb:** "Onlar daha yaxşı sosial vəziyyətə layiq olan insanlardır. Hesab edirəm ki, müəllimlərə dövlət qulluqçusu statusu verməli, onları kommunal, nəqliyyat xərclərindən azad etməliyik. Amma bu heç də bütün müəllimlərə şamil olunmamalıdır. Kimin ki, nəticələri yaxşıdır onların daha yaxşı əmək haqqı almağa haqqı var. Amma diplomu qəbul olunmayan, qeyri-qanuni yolla işə qəbul olan, sertifikasiya imtahanında uğursuz nəticə göstərən, buraxılış və qəbul imtahanlarında şagird nəticələri zəif olan müəllimlərlə yaxşı nəticə göstərən müəllimləri eyniləşdirmək ədalətli deyil".

❑ Xalìdə GƏRAY,
"Yenì Müsavat"

# "Kəfəni yırtan" Tramp... NATO-nu dağıdacaq, Rusiyanı sevindirəcək?

## Elxan Şahinoğlu: "Onun qayıdışı ilə dünya dağılmayacaq"



**"Əgər ABŞ-ın keçmiş prezidenti Donald Tramp noyabrda təkrar seçkilərdə qalib gələ bilsə, NATO dağılacaq və ABŞ avtoritar dəyərlərini ifadə edəcək".**

Bunu "Hill" qəzetinə ABŞ-ın Demokrat Partiyasından keçmiş prezident Bill Klintonun sabiq müşaviri Ceyms Karvill deyib.

"Düşünürəm ki, siz NATO-nun məhv edildiyini görəcəksiniz. Biz avtoritarizm və totalitarizm dəyərlərini ifadə edəcəyik. Biz qanunsuzluq yolu ilə getməyə davam edəcəyik", - deyə o vurğulayıb.

Bundan əlavə, Karvillə görə, Birləşmiş Ştatlar Tramp dövründə "konstitusiyasını itirə bilər".

Qeyd edək ki, C.Karvillin səsləndirdiyi bu fikir ABŞ və Avropada gündən-günə populyarlıq qazanır, Rusiyada isə NATO-nun başına məhz belə bir aqibətin gələcəyinə ümidlər artır.

Sabiq müşavirin yuxarıdakı fikirləri demokratların respublikaçı namizəd Tramp əleyhinə qara PR kampaniyasıdır, yoxsa uğursuz sui-qəsddən sonra qələbə şansı xeyli artan D.Tramp həqiqətən bu dəfə NATO-nun axırına çıxacaq? Rusiyanı, Putini sevincli günlərmi gözləyir? Alyansın yoxluğu konkret olaraq Güney Qafqaza nə vəd edir?

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** "Yeni Müsavat"a deyib ki, Donald Tramp hələ ABŞ prezidenti olanda NATO haqda tənqidi fikirlər söyləyir, hətta alyansa üzv olan ölkələrdən tələb edirdi ki, ABŞ qədər müdafiə xərclərini artırsınlar: "Trampın prezidentliyi bitib, o, yenidən namizəddir, lakin onun tələbi icra olunubmu? NATO-ya üzv ölkələr müdafiə xərclərini artırıbmı? Əlbəttə ki, yox, artırmayıblar. Heç 2 faizə çatdırmayıblar. Donald Tramp o zaman da hədəfinə çatmadı, NATO da dağılmadı".

**Politoloq deyib ki, Donald Tramp indi də əvvəlki kimi ABŞ-ın müdafiə xərclərini azaltmasını, üzv dövlətlərin isə əksinə, müdafiə xərclərinin artırılmasının tərəfdarıdır:** "ABŞ prezidentinin geniş səlahiyyətləri olsa da, güclü dövlət institutları - Dövlət Departamenti, Pentaqon, Mərkəzi Kəşfiyyat İdarəsi var. Hazırda Trampın prezident seçilmə ehtimalı yüksəkdir. Sui-qəsd cəhdindən sonra onun şansları daha da artıb. Co Bayden namizədliyini geri götürməsə, Donald Tramp böyük ehtimalla qələbə qazanacaq. Amma bu o demək deyil ki, Tramp seçildisə, NATO dağılacaq, Ukraynaya yardım dərhal kəsiləcək. Dövlət institutları hesabatlar hazırlayır, dövlət başçısına təqdim edirlər. İnandırırlar ki, bu və ya digər addımın atılması hansı nəticələr verə bilər. Ukraynaya yardım məsələsi də bu qəbildəndir. Ukrayna məğlub olarsa, Avropa ölkələri, ABŞ-ın özü də təhlükə qarşısında qalacaq. Bu halda Trampın özü də açıqlamalarından vaz keçməli olacaq".

**Politoloq deyir ki, keçmiş prezident Bill Klintonun sabiq müşaviri Ceyms Karvillin verdiyi açıqlama daha çox daxili auditoriyaya hesablanıb:** "ABŞ vətəndaşlarında qorxu, xof yaradılmasına hesablanan açıqlamadır. Belə açıqlamalar qorxu mühitinin yaradılmasına, Donald Tramp hakimiyyətə gələrsə, NATO-nu dağıdacağı, ABŞ-ın real təhlükə ilə üz-üzə qalacağı fikrini təlqin etməyə hesablanıb. Oxşar açıqlamaları vitse-prezident Kamilla Haris də səsləndirir, Donald Trampın seçiləcəyi təqdirdə ABŞ-ın, dünyanın dağılacağı deyilir. Əgər dünya dağılan idisə, Tramp 4 il prezident olmuşdu, həmin dövrdə niyə dağılmadı? Düzdür, Trampın bəzi qərarları o zaman da suallar doğururdu. Amma yenə ABŞ hər hansı böyük problemlər yaşamadı.

Donald Tramp deyirdi ki, Meksiya ilə divar tikəcəyəm. Əvvəlcə dedilər ki, bu, ağılsız bir ideyadır. Amma Co Bayden hakimiyyətə gələndən sonra divarı sökmədilər, əksinə, bir qədər də uzatdılar. Tramp prezidentliyi dövründə Çinə qarşı iqtisadi sanksiyalar tətbiq etdi. Co Bayden seçiləndən sonra həmin sanksiyaları ləğv etmədi. Tam əksinə, Çinə qarşı daha sərt iqtisadi sanksiyalar tətbiq olundu. Hətta bu yaxınlarda Çinin elektromobillərinə qarşı əlavə vergilərin tətbiqi təsdiq olundu. Ona görə də verilən proqnozların doğrulacağını düşünmürəm. Donald Trampın prezident seçilməsi bir çox liderləri narahat edir. Hər halda, bu halda dünyanın sonu olmayacaq".

**E.MƏMMƏDƏLİYEV, Musavat.com**

# Pezeşkian hökumətinin "boz kardinalı" - seçki kampaniyasının qəhrəmanı

## Hakimiyyəti azərbaycanlılardan 1990-cı illərdə ovaxtkı prezident Rəfsəncani təmizləmişdi

**İranda əsas məsələlərdən biri yeni hökumətin formalaşmasıdır. Yeni prezident Məsud Pezeşkian seçkiqabağı kampaniya zamanı bir sıra vədlər verib. Onlara əməl etmək üçün uyğun hökumət yaradılması vacibdir.**



Məsud Pezeşkiandan əvvəlki islahatçı prezidentlər elə ciddi nəticələrə nail ola bilmədilər. İlk növbədə nüvə proqramı üzrə "altılıq" ölkələri ilə danışıqlar prosesi uğurlu davam etsə də, yekun nəticə əldə edilməyib. Düzdür, Həsən Ruhani kabinetinin xarici işlər naziri Məhəmməd Cavad Zərifin başçılıq etdiyi İranın nümayəndə heyətinin Qərblə nüvə proqramı üzrə danışıqların yekununda Əhatəli Razılaşma Planı imzalansa da, sonradan ABŞ-ın ovaxtkı prezidenti Donald Tramp bu razılaşmadan ölkəsini geri çəkərək, İrana qarşı yeni sanksiyalar tətbiq etmişdi. Bununla qazanılmış uğur puça çıxarıldı. Hətta sonra Həsən Ruhani və M.Zərifə qarşı siyasi hücumlar başladı. Mühafizəkar xətt nümayəndələri prezidenti "dövlətə xəyanətdə" belə ittiham ediblər. Cari ilin martında bunu əsas göstərərək onu Dini Ekspertlər Şurasına keçirilən seçkidə namizəd olaraq iştirak etməyə buraxmadılar.



Məsud Pezeşkian seçkiqabağı dövrdə islahatçı sələflərinin həyata keçirə bilmədikləri Qərblə dialoq aparmağa hazır olduqlarını vəd edib. Ona görə əsas məsələlərdən biri də yeni seçilən prezidentin baş məsləhətçinin kimliyi məsələsi gündəlikdədir. Pezeşkian vaxtilə səhiyyə naziri olsa da, dövlətin xarici siyasəti, iqtisadiyyat, neft, müdafiə və başqa bu kimi sahələrdə təcrübəsinin az olduğu istisna deyil. Hakimiyyət sınaqdan çıxmış, etibarlı saydığı islahatçı bir şəxsi, dövlət məmurunu Məhəmməd Cavad Zərifi himayəçi, müşavir, bəlkə də nəzarətçi olaraq təyin edib. O, seçkiqabağı kampaniya zamanı Pezeşkianı müşayiət edib, ondan ayrılmayıb. Bu da yeni seçilən prezidentin keçmiş XİN başçısına tapşırıldığını ehtimal etməyə əsas verir.

Onun bioqrafiyasından bəzi ştrixləri qeyd edək. O, 1960-cı il yanvarın 17-də Tehranda varlı, dindar və siyasi məsələlər baxımından mühafizəkar tacir ailəsində anadan olub. Onun atası İsfahanın ən məşhur iş adamlarından biri, anası isə Tehranda yaşayan Kaşandan olan məşhur tacirlərdən birinin qızı idi. Məhəmməd Cavad ailənin yeganə övladı olub. Uşaq vaxtlarında valideynləri ona televizora baxmağa, radio dinləməyə, mətbuat oxumağa icazə verməyiblər. O, 1976-cı ildə "Ələvi" özəl dini mədrəsəni bitirib. Həmin dövrdə tanınmış dini-ideoloqlar Əli Şəriəti və Mahmud Taleqaninin düşüncələri, yaradıcılığı ilə tanış olub. 17 yaşında təhsil vizası ilə ABŞ-ya gedib, Kaliforniyanın San-Fransisko şəhərində özəl kollecə daxil olub. Oranı bitirdikdən sonra San Fransiskoda Kaliforniya Universitetinə daxil olub, 1981-ci ildə İncəsənət bakalavr dərəcəsini və 1982-ci ildə beynəlxalq münasibətlər üzrə magistr dərəcəsini alıb. 1984-cü ildə Denver Universitetində (Kolorado, ABŞ), Cozef Korbel Beynəlxalq Münasibətlər Məktəbini bitirərək beynəlxalq münasibətlər üzrə ikinci magistr dərəcəsini, 1988-ci ildə isə beynəlxalq hüquq və siyasət üzrə fəlsəfə doktoru elmi dərəcəsini alıb. 1988-ci ildə Denver Universiteti tərəfindən nəşr edilmiş "Beynəlxalq hüquq və siyasətdə özünümüdafiə" kitabının müəllifidir.

**Belə ehtimal etmək olar ki, Pezeşkian özünü türk saysa da, hökumətə nəzarəti isfahanlılar edəcək...**

1989-cu ildə İranın ovaxtkı xarici işlər naziri Əli Əkbər Vilayətinin birinci köməkçisi, 1989-92-ci illərdə İranın BMT-dəki daimi nümayəndəsinin müavini, 1992-2002-ci illərdə XİN başçısının beynəlxalq münasibətlər və hüquq üzrə müavini, 2003-2005-ci illərdə İran Təhlükəsizlik Şurasının ovaxtkı katibi Həsən Ruhaninin nüvə məsələləri üzrə danışıqlarda başçılıq etdiyi nümayəndə heyətinin üzvü olub. 2007-2010-cu illərdə XİN başçısı Mənuçöhr Möttəkinin baş müşaviri işləyib. 2013-2021-ci illərdə Həsən Ruhani kabinetində XİN başçısı olub. 2019-cu ildə ABŞ-ın sanksiyasına məruz qalıb. Onda Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali komissarı Federika Mogerini tətbiq edilən məhdudiyyətə belə münasibət bildirmişdi: "Biz bu qərara təəssüf edirik". Sanksiyaya bu əfsus hissi Məhəmməd Cavad Zərifə ABŞ ilə Aİ-nin fərqli münasibət göstərdiklərindən xəbər verir.

1989-cu ildə İranın ovaxtkı xarici işlər naziri Əli Əkbər Vilayətinin birinci köməkçisi, 1989-92-ci illərdə İranın BMT-dəki daimi nümayəndəsinin müavini, 1992-2002-ci illərdə XİN başçısının beynəlxalq münasibətlər və hüquq üzrə müavini, 2003-2005-ci illərdə İran Təhlükəsizlik Şurasının ovaxtkı katibi Həsən Ruhaninin nüvə məsələləri üzrə danışıqlarda başçılıq etdiyi nümayəndə heyətinin üzvü olub. 2007-2010-cu illərdə XİN başçısı Mənuçöhr Möttəkinin baş müşaviri işləyib. 2013-2021-ci illərdə Həsən Ruhani kabinetində XİN başçısı olub. 2019-cu ildə ABŞ-nin sanksiyasına məruz qalıb. Onda Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali komissarı Federika Mogerini tətbiq edilən məhdudiyyətə belə münasibət bildirmişdi: "Biz bu qərara təəssüf edirik". Sanksiyaya bu əfsus hissi Məhəmmədcavad Zərifə ABŞ ilə Aİ-nin fərqli münasibət göstərdiklərindən xəbər verir.

Məhəmməd Cavad Zərifin nazir işlədiyi dövrdə konkret nəticə əldə etdiyi məlumdur. O, bu uğura İranın ali rəhbəri ayətullah Seyid Əli Xameneinin tapşırığı əsasında nail olduqlarını dəfələrlə açıqlayıb. Bu baxımdan ona mühafizəkarların 2015-ci ilin iyulunda imzalanmış plana görə ittiham etməsi əsassızdır. Çünki onda həmin siyasi qüvvələr Zərifə qarşı ittiham irəli sürməmişdi.

Keçmiş XİN başçısı Məryəm İmani ilə ailə qurandan sonra Nyu-Yorka köçüb orada yaşayıb. Onların orada qızı və oğlu doğulub. Oğlu ABŞ-da elektrotexnika üzrə magistr dərəcəsi alıb. Qızı isə memardır. Hər ikisi ailəlidir.

Zərifdən fərqli olaraq Məsud Pezeşkian ayətullah Ruhullah Xomeyninin qatı tərəfdarlarından olub. O, "hizbullahçı"dır. Danışıqlara hazır olduqlarını bildirsə də, keçmiş XİN başçısı kimi onun Qərblə təmaslarına dair KİV-də məlumat yoxdur. O, bütün həyatını mövcud rejimə həsr edib.

Məhəmməd Cavad Zərif 14-cü hökumətin formalaşması üzrə şuranın sədridir. "Milli birlik (etnik deyil, iranlı milləti mənasında -red.) hökuməti" yaradacaqlarını bildirib. Zərif bütün bu işlər Xameneinin tapşırığı ilə həyat keçirdiklərini vurğulayıb. Belə ehtimal etmək olar ki, Pezeşkian özünü türk saysa da, hökumətə nəzarəti isfahanlılar edəcək. Çünki İranda hakimiyyətin tamamilə türklərin nəzarətində olmasına imkan verməzlər. İddialara əsasən, hakimiyyəti azərbaycanlılardan 1990-cı illərdə ovaxtkı prezident Əli Əkbər Haşimi Rəfsəncani təmizləyib.

Odur ki, ömür yolu, siyasi və dövlət məmuru kimi fəaliyyəti Məhəmməd Cavad Zərifin Məsud Pezeşkian hökumətinin "boz kardinalı" olacağını deməyə əsas verir.

**Sədrəddin SOLTAN, Report.az**

YENİ MÜSAVAT
N 125 (8498) 19 iyun 2024

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Ekologiya və ətraf mühitin mühafizəsi

# Təbiətin və özlərinin qənimi - siqaret aludəçiliyinin ən ciddi fəsadları

## Tütündə xərçəngə gətirən 60-dan çox zərərli maddə var; həkim: "Siqaret çəkmənin zərəri havanın çirklənməsindən daha çoxdur..."



**Hesablamalara görə,Yer kürəsinin hər üçüncü yaşlı sakini siqaret çəkir. Dünyada siqaret çəkənlərin ümumi sayı isə 1,3 milyard nəfərə çatıb. Bunu daha çox yayılan epidemiya da adlandırmaq olar. Bir də deyirlər ki, siqaret cəlbedici görünən ən qəddar düşməndir. Bunu Ümumdünya Səhiyyə Təşkilatının açıqlamalarında da bəyan ediblər.**

Amma bir fakt da ciddi maraq doğurur. Bir qaydada olaraq siqaret istehsalçısı olan dövlətlər bu məhsulun satışını daxili bazarda xeyli məhdudlaşdırır, az inkişaf etmiş ölkələrdə böyük ticarət şəbəkəsi yaradırlar. Elə buna görə də dünyada siqaret çəkən adamların sayına görə inkişaf etmiş Avropa dövlətlərinin heç biri ilk onluğa daxil deyil. Yenə də birincilik Monqolustandadır, bunun kimi digər dövlətlər də öncül yerləri bölüşürlər.

Amma bu, təkcə insan sağlamlığı yox, həm də ekoloji problemdir. Hər siqaret çəkən havaya nə qədər tütün tüstüsü buraxır? Bunun nəticəsində ekologiya necə və nə qədər ziyan görür?

Tütün tüstüsünün 25%-i siqaret çəkənin ağciyərlərinə daxil olur, 75%-i isə atmosferi zəhərləyir. Bu zəhərli hava ilə nəfəs alan insan passiv və ya ikincili tütün çəkən hesab olunur. İkincili tütün çəkmə hər kəsə, xüsusilə də hələ böyüməkdə və inkişafda olduqları üçün uşaqlara mənfi təsir göstərir. Uşaqlarda nəfəs alıb-vermə tez-tez olduğuna görə onlar çirklənmiş havanı böyüklərə nisbətən daha çox qəbul edirlər. İkincili tütünçəkmə nəticəsində insan 4000-ə yaxın kimyəvi maddənin təsirinə məruz qalır. Bu maddələrin 60-dan çoxu isə xərçəng xəstəliyinin yaranmasına səbəb ola bilər.

Hesablamalara görə, tütünün törətdiyi xəstəliklər nəticəsində hazırda dünyada hər il 6 milyondan artıq insan vəfat edir. 20-ci əsrdə tütün epidemiyası bütün dünyada 100 milyon insanın həyatına son qoydu. İndiki tendensiyanın qalacağı halda 2030-cu ilədək ölənlərin sayının ildə 8 milyona çatması və ümumi olaraq 21-ci əsrdə tütündən 1 milyard insanın vəfat etməsi gözlənilir. Orta hesabla dünya əhalisinin 30%-i siqaret çəkəndir. Azərbaycanda da kişilərin təxminən yarısı siqaret çəkir. Siqaretçəkmə qadınlara nisbətən kişilər arasında daha çox yayılıb. Tədqiqatlar göstərir ki, əksər hallarda tütündən istifadə ilə bağlı sağlamlığa dəyən zərər ondan istifadə etməyə başladıqdan illər və ya onilliklər ötdükdən sonra özünü göstərir. Bu da o deməkdir ki, tütün məmulatlarının istehlakının qlobal səviyyədə geniş miqyas alması şəraitində tütün səbəbindən baş verən xəstəliklər və ölüm epidemiyası yalnız indi başlayır.

**ATU-nun Ağciyər xəstəlikləri kafedrasının müdiri, dosent Rafiq Bayramov** yerli televiziya kanallarına geniş müsahibə verib. O, müsahibəsində ətraf mühitin çirklənməsinin dolayısı ilə ağciyər xərçənginə gətirib çıxarması ilə bağlı suala da aydınlıq gətirib.

Bildirib ki, havanın çirklənməsi ağciyərlərin, bronxların, ümumilikdə tənəffüs orqanlarının zədələnməsində və müxtəlif xəstəliklərin, o cümlədən ağciyər xərçənginin yaranmasında əsas faktordur. Amma onun sözlərinə görə, insan orqanizmi üçün siqaret çəkmənin zərəri havanın çirklənməsindən daha çoxdur: "Havanın çirklənməsi pnevmokonioz dediyimiz peşə toz xəstəliyinin yaranmasına səbəb ola bilir. Eyni zamanda insanın uzun müddət çirkli hava ilə nəfəs alması ağciyər xərçənginin yaranmasında da əsas faktorlardan biridir.

Əhalinin sıx yaşadığı şəhərlərdə havanın vahid həcmində olan toz hissəciklərinin, xüsusilə də kiçik, 3 monometrə qədər olan hissəciklərin ağciyərlərin daha dərinliklərinə, yəni kiçik tənəffüs, bronx yollarına qədər getməsi və onları zədələməsi geridönməz dəyişikliklərin yaranmasına səbəb olur.

İstər maşın tüstüsü, istərsə də sənaye müəssisələrinin fəaliyyəti nəticəsində havaya buraxılan zərərli qarışıqlar, tikinti işləri zamanı əmələ gələn toz hissəcikləri nə qədər çox olarsa, bu, insanların tənəffüs orqanlarına, ağciyərlərə bir o qədər mənfi təsir göstərər. Həmçinin siqaretin ağciyərə çirkli havadan daha zərərli olmasını mütləq söyləməliyəm. Çünki insan təmiz hava şəraiti olan mühitdə yaşasa belə, əgər tütün çəkirsə, həm özünün, həm də istifadə etdiyi tüstünün tərkibindəki qarışıqların ətrafa yayılması nəticəsində başqalarının sağlam tənəffüs hüququ pozulur. Beləliklə, ağciyər xərçəngi və son dövrlərdə çox rast gəlinən, ağciyər toxumasının sərtləşməsi kimi tanınan İdiopatik Pulmoner Fibroz (İPF) xroniki ağciyər xəstəliyinə tutulma riski artır. Bütün dünyada, eləcə də ölkəmizdə sürətlə artan, ölüm göstəricisinə görə 3-4-cü yerdə dayanan, interstisial ağciyər xəstəlikləri içərisində daha aktual olan idiopatik ağciyər fibrozunun ilkin və başlıca yaranma səbəbi də tütün çəkməkdir".

Ekoloji təmizliyin, havanın çirklənməsinin qarşısını almağın vacibliyini, ancaq siqaret çəkmənin daha ciddi problem olduğunu vurğulayan həkim-ftiziopulmonoloq təəssüflə qeyd edib ki, dövlət rəhbərliyi səviyyəsində qərarların verilməsinə, ictimai yerlərdə siqaret çəkməyin qadağan edilməsinə və müəyyən cərimələrin tətbiqinə baxmayaraq, insanlarımız arasında bu zərərli vərdişdən istifadə edənlərin sayı hələ də kifayət qədərdir.

Son dövrlərdə oğlan tələbələrlə yanaşı, qız tələbələr arasında da siqaret çəkənlərin çoxaldığını da təəssüf hissi ilə xatırladan və bunu dünyanın hansısa ölkəsinin xanımlarına bənzəmək cəhdi kimi dəyərləndirən dosent R.Bayramov onu da diqqətə çatdırıb ki, siqaretin bəzən stressə müsbət təsir göstərməsi haqda yayılan fikirlər də yanlışdır. Siqaret çəkmək nəinki stressi aradan qaldırmır, əksinə, stressin orqanizmə neqativ olan tərəflərini birə-beş artırır. Bundan əlavə, hazırda istifadə olunan siqaretin tərkibində tütündən başqa istənilən kimyəvi maddə var və bu maddələrin toksiki təsiri əvvəllər istifadə olunan tənbəkinin təsirindən qat-qat yüksəkdir.

Tütün tüstüsünün bir qullabında 4000 kimyəvi maddə var. Onların bir hissəsi zəhərli olur, digər hissəsi isə orqanizmdə toxuma səviyyəsində dəyişikliklər edir. Ən dağıdıcı təsiri isə qətran göstərir. Qətranın 70 faizi ağciyərlərə toplaşır. Bundan başqa, tütün tüstüsünün qətranı dişlərin və dərinin rəngini də dəyişir. Karbon monooksid (CO) isə siqaretin yanması prosesində daim yaranan qazdır. CO qanda oksigen dövranını pozur və hemoqlobinlə oksigendən daha tez reaksiyaya girir. Siqaret çəkənlərdə tez-tez rast gəlinən təngnəfəslik də CO-nun zərərli təsirindəndir. Amma siqaretə aludəçiliyi məhz nikotin yaradır.

Siqaret tüstüsü insan orqanizmində yod çatışmazlığının güclənməsinə təkan verir. Tütünün tərkibindəki dağıdıcı maddə qalxanvarı vəzin yodla qidalanmasının qarşısını alır. Yod çatışmazlığı orqanizmdə mənfi kimyəvi maddələr dəyişikliyini sürətləndirir, qalxanvarı vəzin hüceyrə toxumalarında fəal şişlərin əmələ gəlməsinə təkan verir, tənəffüs, ağız-burun nahiyələrində və udlaq sistemində ciddi pozuntulara səbəb olur.

Siqaret çəkən insanlar öz sağlamlıqları ilə yanaşı, ətraf mühitə də ziyan vururlar. Siqaret kötükləri bəlkə də şəhər küçələrində ən geniş yayılan tullantıdır. Statistikaya görə, dünyada il ərzində 5,6 trilyon siqaret çəkilir. Siqaret kötüklərinin üçdə ikisi - təxminən 4,5 trilyonu zibil qutularından kənara atılır. Onların tərkibindəki plastik kütlənin çürüməsinə isə illər, hətta onilliklər tələb olunduğundan insanların bu vərdişi ətraf mühitə vurulan ziyanı artırmaqdadır.

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Sevinc TELMANQIZI**

## Reabilitasiya mərkəzində insident: işçilər xəstəni döydü

**DİN Abşeron rayonu ərazisində vətəndaşın müalicə aldığı reabilitasiya mərkəzində işgəncəyə məruz qalması və müraciətinin araşdırılmadığı ilə bağlı yayılan iddialara münasibət bildirib.**

Musavat.com-un məlumatına görə, DİN-in Mətbuat Xidmətinin Media və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi polis mayoru Anar Qafarov bildirib ki, Elvin Eyvazov Abşeron Rayon Polis İdarəsinə ərizə ilə müraciət edərək cari ilin aprel-iyun aylarında Novxanı qəsəbəsində yerləşən "Start" reabilitasiya mərkəzində alkoqolizmdən müalicə aldığı müddətdə mərkəzin əməkdaşları Emin və Orxan adlı şəxslərin ona fiziki və psixi təsir göstərdiyini, həmçinin orada müalicə alan Şamil adlı şəxsin isə onun sifət və qol nahiyəsindən yumruq zərbələri ilə vuraraq xəsarət yetirdiyini bildirib.

Araşdırma zamanı mərkəzin təsisçiləri, eləcə də adları çəkilən əməkdaşları Emin Əliyev və Orxan Şirinovun izahatları alınıb. Onlar müalicə müddətində E.Eyvazova psixi və fiziki zor tətbiq etmədiklərini bildiriblər.



Reabilitasiya mərkəzində müalicə alan Şamil İbrahimov isə izahatında həmin gün E.Eyvazovun aqressiv hərəkətlər etməsi səbəbindən ona irad bildirdiyini və qolundan tutaraq masaya əyləşdirdiyini qeyd edib. Məhkəmə-tibbi ekspertizası zamanı E.Eyvazovun üzərində dərəcəsi təyin olunmayan və sağlamlığa zərər vurmayan xəsarətlər aşkar olunub və bu barədə rəy verilib.

Araşdırmaların yekunu olaraq 17 iyun 2024-cü il tarixində "Start" reabilitasiya mərkəzində Ş.İbrahimovun orada müalicə alan E.Eyvazovun sifət və qol nahiyələrinə xəsarət yetirməsi nəticəsində sağlamlığa zərər vurmayan bədən xəsarəti yetirdiyi sübuta yetirilib. Ş.İbrahimovun hərəkətində cinayət tərkibi müəyyən olunmadığından toplanmış material üzrə cinayət işinin başlanması rədd edilərək barəsində İnzibati Xətalar Məcəlləsinin 157-ci maddəsində nəzərdə tutulmuş inzibati tənbeh tədbirləri görülüb.

## Azərbaycanda bu tarixdən internet bahalaşır - yeni qiymət

**Daima xidmət və məhsullarını inkişaf etdirən "Aztelekom" müştərilərin yüksəksürətli genişzolaqlı internetə artan tələbatını nəzərə alaraq 15 avqust 2024-cü il tarixindən etibarən dəyişikliklər edəcək. Bu barədə Musavat.com-a qurumdan bildirilib.**

Şirkət GPON (Gigabit Passive Optical Network - Gigabit tutumlu Passiv Optik Şəbəkə) tarifləri üzrə təqdim olunan sürətləri 2.5 dəfə (40 Mbit/s internet sürətini 100 Mbit/s-yə, 60 Mbit/s internet sürətini 150 Mbit/s-yə və 100 Mbit/s sürətini isə 250 Mbit/s-yə qədər) artıracaq.

Yeni sürət tariflərində abunəçilər üçün minimal sürət 100 Mbit/s-dən başlayacaq və hər Mbit/s üçün ödəniş məbləği 0.45 AZN-dən 0.25 AZN-ə endiriləcək.

Belə ki, abunəçilərə 100 Mbit/s internet üçün 25 AZN,



150 Mbit/s internet üçün 30 AZN, 250 Mbit/s internet üçün 36 AZN qiymət təklif ediləcək.

Fərdi müştərilər və Biznes müştəriləri üçün tariflərlə bağlı daha ətraflı məlumatı şirkətin rəsmi saytından əldə edə bilərsiniz.

Qeyd edilən qiymət dəyişiklikləri "Aztelekom" MMC-nin təqdim etdiyi xüsusi güzəşt tariflərini, o cümlədən şəhid ailələri və müharibə əlilləri üçün güzəştli "Təşəkkür" tarif paketlərini əhatə etməyəcək.

Bu işlər ölkəmizdə dünya trendləri ilə ayaqlaşma və əhalinin yüksəksürətli internetə olan tələbatında artım tendensiyasını nəzərə alaraq, göstərilən xidmətin keyfiyyətinin yüksəldilməsi və dayanıqlı infrastrukturun təmin edilməsi məqsədilə həyata keçirilir.

YENİ MÜSAVAT
N 125 (8498) 19 iyul 2024



# “PUA-ların qənimi gəlir...” - müharibənin gedişi indi də belə dəyişəcək?

## Hərbi ekspert: “Həmin silahların Azərbaycan Ordusuna hansısa təhdid yaradacağı...”

**Bəllidir ki, pilotsuz uçuş aparatları (PUA) müxtəlif ölçülərdə, konfiqurasiyalarda olur və fərqli məqsədlər üçün tətbiq edilir. Onlardan istifadə edənlərə böyük üstünlük, qarşı tərəfdə isə böyük başağrısı yaradır.**

Dronların, özəlliklə zərbə dronlarının əsas xüsusiyyətlərindən biri onların sadəliyi və məhv etdikləri hədəflərin dəyəri ilə müqayisədə qat-qat ucuz olmasıdır. Bundan əlavə, dronlar sözün həqiqi mənasında minlərlə sayda istehsal oluna bilər, onlara qarşı bu qədər miqdarda bahalı raket istehsalı isə mümkün deyil.

Budur, Cənubi Koreyanın Müdafiə Təchizatı Administrasiyasından (DAPA) kiçik dronları qısa məsafədən uğurla vura bilən lazer silahlarının kütləvi istehsalına başlanması ilə bağlı xəbərlər gəlib (Haqqin.az). Qurğu doqquz metr uzunluğunda və üç metr enində və hündürlüyündə paralelepiped korpusda yerləşən “Blok-I” adlanır. Tamamilə səssiz işləyir, istifadə üçün yalnız enerji təchizatı lazımdır.

Belə bir möcüzə-qurğunun neçəyə başa gəldiyi bildirilmir, lakin əsas göstərici bir “atış”ın qiymətidir: lazer şüasının hədəfə birdəfəlik yönəldilməsi cəmi 1.5 dollara başa gəlir. Müqayisə üçün: “Patriot” raketdən müdafiə sisteminin istifadə elədiyi bir raket 3 milyon dollara başa gəlir.

DAPA artıq bəyan edib ki, gələcək yeni versiyalar daha böyük hədəfləri, o cümlədən təyyarə və ballistik raketləri vurmağa qadir olacaq ki, bu da müharibələrin aparma üsullarını kökündən dəyişəcək. Artıq daha böyük diapazona və dağıdıcı enerjiyə malik “Block II” layihəsi üzərində iş aparılır. Sınaqlar 100%-li effektivlik göstərir.

“Block I” və “Block II” Azərbaycan Ordusundakı PUA-lar üçün təhdid yaradırmı? Bu nə qurğulardır belə?

**Hərbi ekspert, polkovnik Rövşən Məhərrəmov “Yeni Müsavat”a bildirdi ki, “Block I” və “Block II” əslində dünya silah sənayesində yeni bir silahdır:** “Onun hansı məsafədə istifadə olunması barədə isə məlumat yoxdur. Tutaq ki, bir istiqamətdə həmin sistemi yerləşdirsələr, digər istiqamətdə uçan PUA-ları vurma qabiliyyətinə malik olacaqmı? Bax bu suala cavab yoxdur. “Blok”ların hansı məsafəyə uzağı vurması və əhatə dairəsi haqda da məlumat yoxdur. Yeni olduğu üçün həmin silahlar Azərbaycan üçün təhdid yarada bilməz.

Azərbaycan Silahlı Qüvvələrinin PUA-ları, Azərbaycan müdafiə sənayesinin istehsal etdiyi və xaricdən aldığımız PUA-lar müxtəlifdir. “Block I” və “Block II” silahlarının onlardan hansına təsir edə biləcəyi məlum deyil. Tutaq ki, “Bayraktar” PUA 7-8 kilometr hündürlükdə uça bilir və havada 2-3 saat qala bilir. Onu vurmaq imkanları varmı? Adıçəkilən lazerlərin necə işə düşməsi, radarlarının olub-olmaması kimi məsələlər də hələ aydın deyil. Ona görə də bu gün həmin silahların Azərbaycan Ordusu üçün hansısas təhdid yarada biləcəyindən danışmaq tezdir. “Block I” və “Block II” silahlarının bütün texniki imkanları bəlli olmadan dəqiq nə isə söyləmək çətindir. İkincisi, Ermənistanın bu silahları əldə edə biləcəyi barədə bu gün danışmaq çətindir”.

❑ **Etibar SEYİDAĞA, “Yeni Müsavat”**



# Ukrayna müharibəsi bitməlidir, amma necə... - mümkün ssenarilər

## Tükətmə taktikasının hansı tərəfin axırına çıxacağı hələlik bəlli deyil - rəylər

**“Ukrayna Rusiya ilə münaqişəni danışıqlar yolu ilə dayandırmağı planlaşdırır”. “Yeni Müsavat” xəbər verir ki, bu barədə “The New York Times” (NYT) yazıb.**

“Münaqişənin iki il yarım davam etdiyi bir vaxtda Kiyev danışıqlar yolu ilə hərbi əməliyyatları dayandırmaq üçün plan hazırlayır”, - nəşr iddia edib.

Materialda həmçinin deyilir ki, bunu Ukrayna prezidenti Vladimir Zelenskinin bir gün əvvəl Rusiya nümayəndələrinin növbəti “sülh sammitində” iştirakının vacibliyini bildirən sözləri də göstərir. Bəs müharibə nə vaxt, necə, hansı şərtlərlə bitəcək? Hansısa variantın konturları görünürmü?

Bu arada Gürcüstanın hakim “Gürcü arzusu - Demokratik Gürcüstan” partiyasının təsisçisi və fəxri sədri Bidzina İvanişvili bildirib ki, Ukraynada hərbi əməliyyatlar bir ildən gec olmayaraq bitəcək. “Əgər respublikaçılar (Tramp - red.) ABŞ seçkilərində qalib gəlsə, o zaman müharibə daha tez -yanvarda başa çatacaq” - o təxmin edib. Onun sözlərinə görə, Ukraynada hərbi əməliyyatlar bitən kimi Tiflislə Brüssel, eləcə də Vaşinqton arasında mövcud olan anlaşılmazlıq aradan qalxacaq və Gürcüstan “qlobal siyasətdə oyunçular üçün tamamilə fərqli maraq obyektinə” çevriləcək.

Belə çıxır ki, Ukraynada sülh məsələsinə payızdan tez aydınlıq gəlməyəcək? Bəs o vaxtadək kollektiv Qərb Kiyevə lazımi və müasir silahlar, həm də yetərli həcmdə verəcəkmi?

Polşa prezidenti Anjey Duda deyib ki, Rusiyanın Ukrayna münaqişəsində qələbəsi NATO ilə müharibəyə səbəb ola bilər. Onun fikrincə, bu halda Rusiya ilə Şimali Atlantika Alyansı arasında potensial müharibə inanılmaz dərəcədə yaxın olardı. “Hazırda NATO Rusiya ilə mümkün hərbi əməliyyatlara hazırlaşır”, - Duda Ukraynanın mümkün məğlubiyyəti ilə bağlı suala cavab olaraq qeyd edib.

“The Economist” qəzeti isə yazıb ki, Rusiya sovet dövründə toplanmış silahları yenidən işə salıb, lakin köhnə tankların 70%-ə qədəri “yerindən tərpənməyib”, qalanları “yuyulub”, yeni kimi buraxılıb”. Nəşr bildirir ki, Rusiya ordusu köhnə texnikalardakı artilleriya lülələrini çıxararaq özüyeriyən haubitsalara quraşdırır, belə davam edərsə, 2025-ci ildə Rusiya “kritik tükənmə nöqtəsinə” çatacaq.

“Rusiyanın Xarkov üzərində may ayında başlayan hücumu, cəbhə xəttinin başqa yerlərində, xüsusən də Donbasda irəliləyişləri strateji baxımdan əhəmiyyətsiz olub və ona baha başa gəlib. İndi məsələ Ukraynanın mübarizəni davam etdirə bilməyəcəyindən çox, Rusiyanın indiki əməliyyat tempini nə qədər saxlaya biləcəyindən gedir. Əsas məsələ insan resursları deyil. Rusiya cəbhə xəttində gücünü 470 000-də saxlamaq üçün hər ay təxminən 25 000-dən çox yeni əsgəri cəbhəyə göndərməlidir. Əksər kəşfiyyat agentliklərinin hesablamalarına əsasən, Rusiya müharibənin ilk iki ilində 3000-ə yaxın tank və 5000 zirehli texnika itirib”, - məlumatda deyilir.

**Sabiq maliyyə naziri, iqtisadi və siyasi məsələlər üzrə ekspert Fikrət Yusifova görə, kollektiv Qərb Rusiyanı məğlub durumla müharibədə dayandıra bilməyəcəyini artıq anlayıb:** “Rusiya-Ukrayna müharibəsinin mümkün qədər tez qurtarması daha çox Ukraynanın maraqlarına xidmət edəcək. Bu sülhün bağlanması üçün Rusiya ilk növbədə Ukraynanın gerçəkdən sülh istədiyinə inanmalıdır. Rusiya prezidenti Vladimir Putin anlasa ki, Ukraynanın sülh təklifinin arxasında zaman qazanıb, müharibəyə daha yaxşı hazırlaşmaq kimi arxa fikirlər var, o halda heç bir danışıqlara getməyəcək. Rusiya iki il yarım ərzində bu müharibədə çox itkilər verib. O səbəbə onu məğlub durumda dayandırmağa heç vaxt razı olmayacaq. Kollektiv Qərb artıq bunu anlayıb. Əgər Qərb Ukraynaya hərbi yardımlar yolu ilə bu müharibədə Rusiyanı küncə sıxışdırmaq siyasəti yürütsə, o halda Rusiya müharibəni uduzmamaq üçün hər vasitəyə əl atacaq. İlk növbədə arsenalında olan taktiki nüvə silahlarını işə salacaq. Vladimir Putinin bir sözünü xatırladıram. O, çıxışlarının birində "Rusiyasız dünya kimə lazımdı" - demişdi. Bu sözlər sadə sözlər deyil, ABŞ başda olmaqla kollektiv Qərb bu sözlərin fərqindədir, yəni onun ciddiliyini qəbul edirlər. Müharibədə Rusiyanın uduzması Putin hakimiyyətinin sonu demək olar. Bu səbəbdən Rusiya sülh müqaviləsi üçün öz şərtlərini diktə edəcək. Müharibənin başqa, daha təhlükəli müstəviyə keçə biləcəyindən qorxan kollektiv Qərb indi daha çox onun tezliklə bitməsini arzulayır.

ABŞ-da hakimiyyətə Donald Trampın gələcəyi ehtimalı sui-qəsd hadisəsindən sonra nə qədər artsa da, Demokratların prezident kürsüsünə digər namizədi gətirmək səyləri hələ bitməyib. Yəni indidən Donald Trampın noyabr ayında seçkilərdə qalib gələcəyini əminliklə söyləmək mümkün deyil. Əgər prezident kürsüsünə yenidən Demokratların namizədi oturarsa, o halda müharibənin aqibətinin necə olacağını söyləmək mümkün deyil. Bütün hallarda Rusiya ilə Ukrayna arasında sülh müqaviləsinin bağlanması o qədər də asan olmayacaq. Çünki ortada çox açıq suallar və qaranlıq məqamlar var".

**Ədalət, Hüquq, Demokratiya Partiyası sədrinin müavini, politoloq Niyaməddin Orduxanlı hesab edir ki, Putinin şərtləri yerinə yetirilmədən müharibə bitməyəcək:** “Ukraynada müharibənin bitməsini istəyirlərsə, Putinlə danışıqlar aparmalıdır. Rusiyasız "sülh sammiti" keçirirlər. Bu çox gülməlidir. Müharibə edənin iştirakı olmadan hansı sülhdən söhbət gedə bilər? Putinin əsas şərti odur ki, Ukrayna NATO-ya üzv olmaqdan imtina etməlidir. Putin bu mövqeyindən geri çəkilən deyil. Bidzivina İvanişvili dəqiq bilməmiş deyil ki, Ukraynanı Rusiyaya qarşı qoyan məhz Amerikadır. Rusiya Ukraynanın siyasətini çox yaxşı bilir. 2 ildir müharibə gedir. NATO niyə müharibəyə qoşulmur? Nəinki qoşulmur, ən müasir silahları Ukraynaya vermir. Çünki Rusiyanın indiki vəziyyətdə qalmasında maraqlıdır. Trampın qalib gəlsə, ən çox ziyanı Ukrayna çəkəcək. Çünki Trampla Putinin çox yaxın münasibətləri var".

Əlavə edək ki, Ukraynada müharibənin necə bitəcəyi ilə bağlı fərqli yanaşma və gözləntilər də var.

❑ **Cavanşir ABBASLI, “Yeni Müsavat”**

# Sahibsiz itlər: cəmiyyətin, yoxsa dövlətin problemi?

**Xəbər verildiyi kimi, Sumqayıtda sahibsiz itin boğazına ip bağlayıb sürüyən şəxs görüntülənib. Bununla bağlı videogörüntü sosial şəbəkədə yayımlanıb. Vətəndaş iddia edir ki, Sumqayıt şəhər təmizlik idarəsinin işçiləri sahibsiz küçə itlərini zəhərləyərək öldürürlər. Bəzi zəhərlənmiş itlər isə hələ ölməmiş boyunlarına ip bağlanılır və sürüyərək gətirilib zibil qutularının yanına atılır.**

Qeyd edək ki, artıq polis əməkdaşları tərəfindən Sumqayıt şəhərində küçə itinə qarşı qeyri-insanı rəftar edən şəxsin kimliyi müəyyən edilib. Məlumata görə, onun barəsində müvafiq araşdırmalar aparılır. Həmin şəxsin 5 saylı Mənzil Kommunal Sahəsinin əməkdaşı Yavər Hüseynov olduğu bildirilir. Sözügedən şəxs isə itə işgəncə vermədiyini, sakinin şikayəti əsasında binanın dəhlizinə baxmağa getdiyini bildirib: "Gördüm ki, itin ayağı zədəlidir. İpi boğazına bağlayıb oradan dartıb çıxardım. Sürüyüb zibilxanaya apardım. Bu zaman ətrafdakılar üstümə düşdülər ki, iti boğursan".

Sirr deyil ki, sahibsiz küçə itləri, xüsusən də quduz olanları əhaliyə, uşaqlara vaxtaşırı xəsarət yetirir. Ciddi təhlükə mənbəyinə çevrilir. Bəzən bu xəsarətlər həyat üçün qorxulu şəkil də ala bilər.

Xatırladaq ki, bu ilin mart ayında Qaradağ rayonundakı məcburi köçkünlərin yaşadığı "Qobu Park-3" yaşayış kompleksində sahibsiz itlər 2014-cü il təvəllüdlü azyaşlı oğlana hücum edərək onu parçalamışdılar. Nəticədə uşaq çoxsaylı xəsarətlərlə xəstəxanaya yerləşdirilmişdi. 10 yaşlı uşağın dostları ilə oynayarkən birdən-birə 3 itin hücumuna məruz qalması və həm də çox ağır xəsarətlər alması "Qobu Park-3"də yaşayan bütün valideynləri vahiməyə salmışdı. Bu cür hadisələrlə vaxtaşırı qeydə alınır. Bununla belə, küçə itlərinin öldürülməsi də birmənalı qarşılanmır. Dinimiz də heyvana zülm etməyi günah sayır.

Qeyd edək ki, Azərbaycan 1997-ci ildə Strasburqda heyvanların mühafizəsi ilə bağlı Avropa Konvensiyasına qoşulub, 2007-ci ildə ölkəmizdə "Heyvanların mühafizəsi haqqında" Qanun qəbul olunub. Qanuna əsasən, heyvanları öldürən və yaxud onlarla qəddar rəftar edib şikəst edən şəxslər İnzibati Xətalar Məcəlləsinin 129-cu maddəsinə əsasən cərimə olunurlar. Cərimə isə əvvəllər 25-45 manat arasında dəyişirdisə, hazırda bu məbləğin 500 manat olduğu bildirilir. Həmçinin yarış, satış və heyvanların təbii imkanlarını artırıb-azaltmaq üçün onlara preparatların verilməsi, tibbi-texniki üsulların tətbiqi üçün 200 manat cərimə nəzərdə tutulub.

Bəs çıxış yolu nədir - bu, daha çox dövlətin, yoxsa cəmiyyətin çözməli olduğu problemdir?

**Mövzu ilə bağlı həkim, diyetoloq-terapevt, heyvan hüquqlarının müdafiəçisi Ləman Süleymanova "Yeni Müsavat"a danışıb:** "Öncə qeyd edim ki, Sumqayıtda baş verən sonuncu tükürpədici hadisə dəfələrlə heyvanlara qarşı törədilib. Nəinki Sumqayıtda, eləcə də paytaxt Bakıda və digər bölgələrdə tez-tez heyvalara qarşı zülm olunur. Xarici ölkələrdə heyvanların hüquqları qorunur. Məsələn, qardaş Türkiyədə, xüsusən də İstanbul şəhərində sahibsiz itlərə, eləcə də pişiklərə xüsusi qayğı göstərilir, bələdiyyə tərəfindən qısırlaşdırılır, peyvənd edilir. İnsanlar da heyvanlara qarşı mərhəmətli davranır, küçələrdə onlar üçün qida, su qoyurlar. Azərbaycanda da mərhəmətli insanlar var və onlar da daim heyvanlar üçün küçələrdə qida, su qoyurlar. Mən özüm də imkanım olduğu qədər sahibsiz heyvanlara qida verir, onlara qayğı göstərməyə çalışıram. Heç vaxt itlərin hücumuna məruz qalmamışam.

## Heyvan hüquqlarının müdafiəçisi: "Heyvana zülm edən 500 manat cərimələnir, cərimə 10 min manat olsa, bundan çəkinərlər..."

İt əgər hürürsə, bu o deməkdir ki, insanla ünsiyyət yaratmaq istəyir. Yəni "acmışam, qida istəyirəm". Olur ki, heyvanlar günlərlə deyil, həftələrlə, aylarla ac-susuz qalır və insanlardan qida istəyirlər. Bəzi insanlar da var ki, mərhəmətsizdir, qida qalığını zibilə atır, amma ac heyvanın qarşısına qoymur.

Bir müddət bundan əvvəl "Qobu Park-3"də it tərəfindən uşağa hücum hadisəsi oldu. Bir nüansı nəzərə çatdırmaq istəyirəm, valideynləri tərəfindən düzgün tərbiyə olunmamış bəzi uşaqlar var ki, onlar azğın davranış nümayiş etdirirlər. Nəinki heyvanlara, eləcə də həmyaşıdlarına, böyüklərinə sataşırlar. Son hadisəni araşdırdıq, belə məlum oldu ki, azyaşlı uşaqlar itlərin olduğu bir əraziyə həmişə gedib, orada oynayır və itlərə sataşırlar. Orada da bir çoban iti olub və uşaq itin ağzına çubuq soxmağa çalışıb və it də ona hücum edib. Bu cür işgənceni insan da qəbul etməz, o da ola şüuru olmayan heyvan.

Daha bir məsələ, dövlət tərəfindən küçə heyvanları üçün vəsait ayrılır, bu vəsaitə heyvanların qısırlaşdırılması, quduzluğa və müəyyən infeksiyaya görə peyvəndləşdirilməsi daxildir. Həmçinin heyvanlara xüsusi birkalar keçirilir. Amma bəzi məmurlar bu vəsaiti heyvanlara xərcləmək yerinə onu mənimsəyir və heyvanları öldürür.

Tez-tez eşidirik ki, Sumqayıtda mənzil kommunal sahəsinin əməkdaşları itlərə divan tutur, onlar zəhərləyir, güllələyirlər. Bəzən bu vəhşilik küçədə uşaqların gözü qarşısında törədilir. Hətta pişiklərin torbalara yığılaraq, atıldığı haqda da məlumatlar gəlir. Bu, həqiqətən də çox təəssüfedici haldır, vəhşilikdir, biz heyvanseverlərin səbr kasasını doldurur.

Sumqayıtda itə zülm edən 5 saylı Mənzil Kommunal Sahəsinin əməkdaşı Yavər Hüseynov açıqlama verib ki, guya itin ayağı zədəli olub, ona görə ipi boğazına bağlayıb, oradan dartıb çıxardıb. Amma ortada video faktlar var və həmin görüntülərdən də aydın olur ki, Yavər Hüseynov tamamilə yalan açıqlama verir. Bu işləri törədən hər kəsin cəzalanmasını istəyirik. Əks təqdirdə, heyvanseverlər etirazlarını ciddi şəkildə bildirməli olacaqlar".

**Ləman Süleymanova heyvanlara zülm edənlərə qarşı nəzərdə tutulmuş cərimə cəzasının dəfələrlə artırılmasının tərəfdarı olduğunu da vurğulayıb**: "Qanuna əsasən heyvana zülm edən şəxslər 500 manat cərimə olunur. Bu cərimə 10 min manata çatdırılsa, insanlar artıq heyvanlara zülm etməkdən çəkinər".

Bəs dünya təcrübəsi nə deyir?

Qonşu Türkiyədə küçə itləri ilə mübarizə aparılmır. Buna heç dövlət də icazə vermir. Küçədəki bütün sahibsiz heyvanlar dövlət tərəfindən müayinə edilir, vaksinasiya olunur. Bununla da sahibsiz heyvanlardan zərər gəlməyəcəyinə əmin olurlar. Peyvəndlənən heyvanları digərlərindən ayırmaq üçün qulaqlarına sırğa ("birka") da taxırlar. Türkiyəyə səfər edən hər kəs qulağında "birka" olan küçə itlərini görməmiş olmaz.

Avropa ölkələrində isə heyvanları öldürmək nəinki qadağandır, hətta itini zəncirləyən şəxsləri də cərimələyirlər. Bu cərimə 10-15 min avro civarında olur. Almaniya konstitusiyasına görə, bəzi hallarda heyvanları kinoya çəkmək belə olmaz. Əgər çəkilişlər onlara əziyyət verərsə, buna icazə yoxdur.

Qeyd edək ki, Azərbaycanda sahibsiz itlər üçün bilinən əsas mərkəz "Toplan"dır. Bakı Şəhər İcra Hakimiyyətinin Mənzil-Təsərrüfat Kommunal Departamentinin sanitariya və texniki təmizlik idarəsinin ərazisində yerləşən mərkəz üç inzibati-təsərrüfat binasından ibarətdir.

❑ Xalidə GƏRAY,
"Yeni Müsavat"



**"İt əgər hürürsə, o deməkdir ki, insanla ünsiyyət yaratmaq istəyir, yəni "acmışam, qida istəyirəm""**



## Çimərliyə gedənlər oxusun - o halda infeksiyaya yoluxa bilərsiz...

**"Yay fəslində həzm xəstəliklərinə təsir göstərən faktorlar olur. Düzgün qida seçilməməsi, qidaların düzgün saxlanılması və təkrar istifadəsi, infeksion, mövsümü insan davranışları, qidalanma rejiminin dəyişməsi və s.".**

Musavat.com xəbər verir ki, bu fikirləri "Sağlam radio"da yayımlanan "Sağlam səhər" verilisində Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, qastroenteroloq Emin Məmmədov açıqlayıb.

Onun sözlərinə görə, yay aylarında adətən həzm problemi, ishal, mədə ağrısı, öd daşının ağrı tutmaları, ürək bulanma və qusma şikayətli pasiyentlərin müraciətinə tez-tez rast gəlinir: "Bəzi insanlarda bütün bu əlamətlərin hamısı eyni vaxtda görünə bilər. İsti yay günlərində bədən daha çox maye, mineral itkisinə məruz qalır, nəticədə qəbizlik halları artır, insanlar az iştahalı olur. Yay aylarında daha çox səyahət edildiyindən səyahətçi diarreyası dediyimiz ishal halları yaranır.

İsti hava xüsusilə qida ilə yoluxan xəstəlik törədən mikroblar üçün ideal şəraitdir. Yay aylarında farş ətdən hazırlanan qidalar, süddən hazırlanan kremli məhsullar, hazırlanan yeməkləri soyuducuda belə olsa, saxlayıb təkrar yeməmək tövsiyə edilir. Qida hazırlanarkən bir neçə saat içində tükənməlidir".

Qastroenteroloq bildirib ki, bu fikir məhz yayın əsas meyvəsi qarpız və yemişə də aiddir: "Onları yaxşı yumaq şərtdir, çünki xəstələnmənin əsas səbəbi torpaqla kontaktdan meyvəyə düşən mikroblar tərəfindən törədilir. Digər məsələ soyuducuda saxlayıb bir neçə gün yeyilməsi məsləhət görülmür".

Mütəxəssis-ekspert bildirib ki, dəniz mövsümündə günvurma və dəniz suyunun udulması ilə bağlı mədə-bağırsaq pozuntuları, qusma və ishal şikayətləri ilə müraciət edilməsinə səbəb duzlu suyun həzm sistemini qıcıqlandırması və infeksiya səbəbi ilə baş verir: "Yay fəslində uzun müddətli mədə turşuluğunu salan dərmanlar qəbul edən pasiyentlər qidalanarkən daha diqqətli olmalıdırlar, çünki turşuluq bizi mikrobların daxil olmasından qoruyan baryer olduğundan zəhərlənmə və patogen mikroblara daha tez yoluxa bilərlər".

Ekspert sonda dinləyicilərə yay aylarında mövsümündə yetişən tərəvəz və meyvələrə üstünlük verməyi, hər bədən kiloqramına 20-30 ml olmaqla su istifadə etməyi, gün vurmalardan qorunmaq üçün günün pik saatlarında gün altında olmamağı, qidalar hazırlanarkən dərhal yeyilməsini və saxlanma qaydalarına uyğun şəkildə saxlamağı məsləhət görüb.

YENİ MÜSAVAT

iyul

Son səhifə

N 125 (8498) 19 iyul 2024

## Bunları bilirsinizmi?

* Yorğunluğu götürmək üçün ayaqları duzlu su ilə vanna etməkdə fayda var.
* Çatlamış dərini qəhvə xıltı ilə ovxaladıqda əllərin dərisi yumşaq və elastik olur.
* Yatarkən başınızın altına hündür yastıq qoymayın, yoxsa boynunuzun dərisi qırışar.
* Üzün dərisini çirkin göstərən ölmüş dəri toxumalarıdır. Vaxtaşırı bu toxumalardan azad olmaq lazımdır. Dəridəki ölü toxumaları sərt liflərlə təmizləmək olmaz. Skrablar dərinin belə toxumalardan təmizləmək və yeni dərinin üzə çıxamsına şərait yaratmaq üçündür.
* Ömrünü tamamlayan saçların 1-2%-nin töküldükdən sonra yerinə yeni tük gəlir.
* Saç tökülməsinin qarşısını almaq üçün ilk növbədə onun əmələgəlmə səbəbini aradan qaldırmaq lazımdır.
* Ayaq dırnaqlarında olan göbələklərdən xilas olmaq üçün alma sirkəsini ılıq suya töküb ayaqları vanna eləmək lazımdır. Bu proseduru göbələk əlamətləri aradan qalxana qədər bir-neçə dəfə etmək lazımdır.

# Ürəyin içini göstərən yeni texnologiya icad edildi



**Alimlər insan ürəyinin iç quruluşunu, toxumanı çəkib göstərə bilən texnologiya icad ediblər. “Quql Ers”ə (Google Earth) bənzəyən yeni texnologiya HİP KT adlanan X şüalarla çalışan qurğu ürəyi insanın saç tükünün yarısı incəliyində göstərə bilir.**

Bu, ürəyi kəsmədən bütün quruluşunu incələyib, ürək xəstəliklərini daha dəqiq diaqnoz və müalicə imkanı verəcək.

London kollecinin araşdırmaçıları sağlam və xəstə ürəyi bu metodla incələyib. Xəstə ürəkdə KT hətta ritm pozğunluğunun da səbəbini dəqiqliklə göstərib. Ürəyin içini 20 mm-ə qədər yaxınlaşdırmaq olur.

Lakin yüksək radiasiya şüalanması səbəbindən bu metod hələ ki, yalnız elmi tədqiqatlarda istifadə oluna bilər. Kardioloqlar yeni kəşfin daha əlçatan olacağı vaxtı gözləyir.



## 300 min avro mükafat: Edirne küçələrində sensasiyalı axtarış

**Son aylarda İstanbul narkotik polisinin çirkli pulların yuyulmasına qarşı keçirdiyi əməliyyatdan sonra niderlandlı narkotik baronu Cozef Yohannes Leydekkersin Türkiyədə yaşadığı iddia edilib.**

Leydekkers Avropanın ən çox axtarılan şəxslərindən biridir. Türkiyədə keçirilən əməliyyatın narkobaronun ölkə ilə əlaqələrinə yönəldildiyi öyrənilib. Artıq Edirne küçə və prospektlərinə “wanted/axtarılır” yazısı ilə asılan afişalarda onu tapana “300 min avro” mükafat veriləcəyi bildirilib.

Sakinlər elanı maraqla qarşılayıblar. Edirnelilər Leydekkersin nə səbəbdən axtarıldığını bilmədiklərini, ancaq mükafat qazanmağın onların həyatı üçün əhəmiyyətli ola biləcəyini deyiblər. Türkiyə hüquq-mühafizə orqanının məlumatına görə, Leydekkers Avropada narkotik satışından əldə edilən gəlir yerli sakin Naci Y. vasitəsilə “yuyub”. Naci Y. xaricdə yaşadığı üçün əməliyyat zamanı onun qardaşı saxlanılıb.

Digər tərəfdən, Niderland polisinin Leydekkersin atasının evinə keçirilən əməliyyatda 140 min avro dəyərində iki saat və lüks əşyaların ələ keçirildiyi barədə məlumat yayılıb. Bildirilir ki, narkobaronun 68 yaşlı atası da saxlanılıb.

# Üz nahiyəsini arıqlatmaq mümkündürmü?



**Bununla bağlı türkiyəli estetik və plastik cərrahiyyə mütəxəssisi Ufuk Askeroğlu açıqlamalar verib. O, xüsusilə qadınların ən böyük problemi olan üz nahiyəsinin arıqladılması üçün nələr edilə biləcəyindən danışıb. Ufuk Askeroğlunun sözlərinə görə, üz nahiyəsindəki piylər və çəki dəyişiklikləri əsasən bədənin digər hissələrindəki yağlanma ilə birlikdə müşahidə olunur. Ancaq üzdəki piylənmə və ya çəki artımı insanın ümumi görünüşünə təsir edə bilər.**

Üzdə piylənmə adətən genetik faktorlar, yaşlanma prosesi və həyat tərzi vərdişləri ilə əlaqəlidir. Xüsusilə yanaqlar, çənə, boyun və gözaltı nahiyələrindəki piylər insanın üzünün dolğun və yuvarlaq görünməsinə səbəb ola bilər. Üzdəki piylənmə estetik problem olmaqla yanaşı, həm də sağlamlıqla bağlıdır. Olduqca artıq çəki (piylənmə) halında üzdəki piylər daha çox nəzərə çarpır ki, bu da ürək xəstəliyi riski kimi sağlamlıq problemlərinin göstəricisi ola bilər. Buna görə də üzdəki piylənmə nəzarət altına alınmalı və sağlam çəkinin əldə edilməsinə səy göstərilməlidir.

Bədəndəki ümumi piylənmənin azalması üz piylərinin də azalmasına kömək edə bilər. Bədəndəki piylənmə nisbəti sağlam qidalanma vərdişləri və müntəzəm idmanla azaldıla bilər. Həmçinin bəzi üz məşqləri ilə üz əzələlərini gücləndirərək, üz xətlərini sıxlaşdırmaq və onları daha nəzərəçarpan etmək mümkündür. Məsələn, üz yoqası hərəkətləri və ya üz əzələlərini hədəf alan məşqlər bu üsullardan biridir.

Sağlam və balanslaşdırılmış qidalanma proqramı bədən çəkisinin nəzarət altında saxlanmasına və üz piylərinin azaldılmasına kömək edə bilər. Fast-food kimi qidalardan uzaq durmaq və meyvə-tərəvəzlərin üstünlük təşkil etdiyi diyetlərin seçilməsi tövsiyə olunur. Kifayət qədər su içmək dərinin nəm balansının qorunmasına və üzdəki şişkinliyini azalmasına yardım edə bilər.

Sağlam həyat tərzi və uyğun üsullarla çəkiyə nəzarət etməklə də üzdəki piy problemini həll etmək olar. Ancaq hər bir halda mütəxəssis həkimdən dəstək almaq və doğru yanaşma tərzi zəruridir.

# Yuxu problemi olanların nəzərinə: ölüm riski...



**Qısa müddət ərzində yüngül idmanla məşğul olmaq yuxunu 30 dəqiqəyə qədər uzada bilər. Axşam saatlarında idmanla məşğul olmaq gecə daha yaxşı yatmağa kömək edir, həmçinin yaşlı insanlarda diabet və ürək xəstəliyi riskini azaldır.**

Bununla bağlı tədqiqatlar uzun müddət oturmağın və yuxusuzluğun ürək xəstəliyi, diabet və ölüm riskini artırdığını müəyyən edib. Ancaq yatmazdan əvvəl uzun müddət ağır şəkildə idman etmək tövsiyə olunmur, çünki bu, bədən istiliyini və nəbzini artıraraq yuxu keyfiyyətini azalda bilər. “BMJ Open Sport & Exercise Medicine” elmi jurnalında dərc edilən yeni araşdırma axşam saatlarında qısamüddətli yüngül məşqlərin yuxunu 30 dəqiqəyə qədər uzada biləcəyini müəyyənləşdirib. Tədqiqatda təxminən 30 iştirakçı fasilələrlə 4 saatlıq iki uzun oturma seansını tamamlayıb. Oturma seansları hər yarım saatda üç dəqiqəlik hərəkət fasiləsi ilə kəsilib. Hərəkət fasilələri üç məşqdən ibarət olub: ayaqları yuxarı qaldırmaq, ayaq üstə dizləri çəkmək və ayaqları düz irəli uzatmaq.

Araşdırmanın müəlliflərindən Meredit Peddi bunu belə izah edib: “Bu sadə bədən çəkisi məşqləri ona görə seçilib ki, onlar avadanlıq və böyük yer tələb etmir”.

Tədqiqatın aparıcı müəllifi Cennifer Qeyl bildirib: “Biz müşahidə etdik ki, iştirakçılar məşq fasilələrini tamamladıqdan sonra 30 dəqiqə daha çox yatıblar. Bilirik ki, bir çoxumuz üçün ən uzun fasiləsiz oturma müddəti axşam evdə ikən olur. Əvvəlki araşdırmalarımızda yeməkdən sonra hər 30 dəqiqədən bir ayağa qalxmağın və bir neçə dəqiqə idman etməyin müsbət keyfiyyətlərini aşkarladıq. Ancaq bir çox yuxu qaydası yatmazdan əvvəl bir neçə saat ərzində uzun və gərgin məşqi tövsiyə etmir. Buna görə də axşam saatlarında çox qısa, yüngül hərəkətlər edilsə nə olacağını görmək istədik. Bundan başqa, evin ətrafında gəzməklə də oxşar effekt əldə etmək mümkündür. Hətta zalda rəqs etmək də faydalı ola bilər. Ən vacib şey, müntəzəm olaraq stuldan qalxmaq və bədəni hərəkət etdirməkdir”.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Lisenziya N: B 114
SAYI: 1.500

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Son dakika” MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.